23 oktyabr 2020-ci il
№35 (8899)

www.muallim.edu.az
muallim@edu.gov.az

# AZƏRBAYCAN MÜƏLLİMİ

*Təhsil millətin gələcəyidir!*
*Heydər Əliyev*

Azərbaycan Respublikası Təhsil Nazirliyinin orqanı

## İlham ƏLİYEV, Ali Baş Komandan

# Qarabağ bizimdir, Qarabağ Azərbaycandır!

## Biz zəfər çalacağıq!



## Bu gün işğaldan azad edilmiş torpaqlarda Azərbaycan bayrağı dalğalanır

İlham Əliyev @azpresident · 3 окт.
Bu gün #Azərbaycan ordusu #Madagizdə Azərbaycan bayrağını qaldırdı. Madagiz bizimdir. #Qarabağ Azərbaycandır!

İlham Əliyev @azpresident · 4 окт.
Bu gün Azərbaycan ordusu Cəbrayıl şəhərini və rayonunun bir neçə kəndini işğaldan azad etmişdir. Eşq olsun Azərbaycan ordusuna! Qarabağ Azərbaycandır!

İlham Əliyev @azpresident · 3 окт.
Bu gün #Azərbaycan #Ordusu Tərtər rayon Talış kəndini, Cəbrayıl rayon Mehdili, Çaxırlı, Aşağı Maralyan, Şəybəy və Quycaq kəndlərini, Füzuli rayonu Aşağı Əbdürrəhmanlı kəndini azad etmişdir.

#Qarabağ #Azərbaycandır!

İlham Əliyev @azpresident · 4 окт.
Bu gün Cəbrayıl rayonunun Karxulu, Şükürbəyli, Çərəkən, Daşkəsən, Horovlu, Mahmudlu, Cəfərabad, Yuxarı Maralyan, Decal kəndləri işğaldan azad edilmişdir. Eşq olsun Azərbaycan ordusuna! Qarabağ Azərbaycandır!

## Heydər ƏLİYEV, ümummilli lider

# "İnanıram ki, mənim axıra çatdıra bilmədiyim taleyüklü məsələləri, planları, işləri İlham Əliyev başa çatdıra biləcək"



Ümummilli lider Heydər Əliyevin 1 oktyabr 2003-cü il tarixli xalqa müraciətindən

"İnanıram ki, mənim axıra çatdıra bilmədiyim taleyüklü məsələləri, planları, işləri sizin köməyiniz və dəstəyinizlə İlham Əliyev başa çatdıra biləcək. Mən ona özüm qədər inanıram və gələcəyinə böyük ümidlər bəsləyirəm".



# “Azərbaycan hər zaman bilməlidir və bilir ki, Türkiyə onun yanındadır və bu, bizə güc verir”

Bizim üstünlüyümüz odur ki, Türkiyə və Azərbaycan prezidentləri - əziz qardaşım Rəcəb Tayyib Ərdoğan ilə birlikdə bu təməl - ortaq tarix, etnik köklər və dil üzərində elə bir möhkəm bina inşa etdik ki, bu, əbədi qalacaq. Bizdən sonra gələn nəsillər də hərəsi bu binanın üstünə bir daş qoyarsa, bu möhtəşəm bir bina olacaq - Türkiyə-Azərbaycan qardaşlığı binası. Mən bütün qardaşlarıma, Türkiyədə yaşayan bütün insanlara Azərbaycan xalqı adından dərin təşəkkürümü bildirirəm. Biz gördük ki, biz tək deyilik. Qardaşım Tayyib bəyin dediyi kimi, Azərbaycan hər zaman bilməlidir və bilir ki, Türkiyə onun yanındadır və bu, bizə güc verir.

**Prezident İlham Əliyevin oktyabrın 15-də Türkiyənin NTV televiziyasına müsahibəsindən**

## İlham ƏLİYEV,
## Ali Baş Komandan

# Bu gün işğaldan azad edilmiş torpaqlarda Azərbaycan bayrağı dalğalanır



**İlham Əliyev** @azpresident · 5 окт.
Bu gün Azərbaycan ordusu Cəbrayıl rayonunun Şıxəli Ağalı, Sarıcalı, Məzrə kəndlərini və müxtəlif istiqamətlərdə bir neçə strateji yüksəkliyi azad etmişdir. Qəhrəman ordumuzun uğurlu əməliyyatı davam edir. Qarabağ Azərbaycandır!

**İlham Əliyev** @azpresident · 9 окт.
Bu gün Azərbaycan ordusu Hadrut qəsəbəsini, Çaylı, Yuxarı Güzlək, Gorazıllı, Qışlaq, Qaracalı, Əfəndilər, Süleymanlı, Sur kəndlərini işğaldan azad edib. Eşq olsun Azərbaycan ordusuna! Qarabağ Azərbaycandır!

**İlham Əliyev** @azpresid... · 14 окт.
"Rəşadətli Azərbaycan Ordusu tərəfindən Füzuli rayonunun Qaradağlı, Xatunbulaq, Qarakollu, Xocavənd rayonunun Bulutan, Məlikcanlı, Kəmərtük, Təkə, Tağaser kəndləri işğaldan azad edilib. Eşq olsun Azərbaycan Ordusuna! Qarabağ Azərbaycandır!"

**İlham Əliyev** @azpresid... · 15 окт.
Rəşadətli Azərbaycan Ordusu tərəfindən Füzuli rayonunun Arış, Cəbrayıl rayonunun Doşulu, Xocavənd rayonunun Edişə, Düdükçü, Edilli, Çiraquz kəndləri işğaldan azad edilib. Eşq olsun Azərbaycan Ordusuna! Qarabağ Azərbaycandır!

**İlham Əliyev** @azpresid... · 16 окт.
Rəşadətli Azərbaycan Ordusu tərəfindən Xocavənd rayonunun Xırmancıq, Ağbulaq, Axullu kəndləri işğaldan azad edilib. Eşq olsun Azərbaycan Ordusuna! Qarabağ Azərbaycandır!

**İlham Əliyev** @azpresid... · 17 окт.
Rəşadətli Azərbaycan Ordusu tərəfindən Füzuli rayonunun Qoçəhmədli, Çimən, Cuvarlı, Pirəhmədli, Musabəyli, İşıqlı, Dədəli kəndləri və Füzuli şəhəri işğaldan azad edilib. Eşq olsun Azərbaycan Ordusuna! Qarabağ Azərbaycandır!

**İlham Əliyev** @azpresid... · 18 окт.
Azərbaycan Silahlı Qüvvələri qədim Xudafərin körpüsünün üzərində Azərbaycan bayrağını qaldırdılar. Eşq olsun Azərbaycan xalqına! Qarabağ Azərbaycandır!

**İlham Əliyev** @azpresid... · 19 окт.
Cəbrayıl rayonunun Soltanlı, Əmirvarlı, Maşanlı, Həsənli, Əlikeyxanlı, Qumlaq, Hacılı, Göyərçinveysəlli, Niyazqullar, Keçəl Məmmədli, Şahvəlli, Hacı İsmayıllı, İsaqlı kəndləri azad edilmişdir. Qarabağ Azərbaycandır!

**İlham Əliyev** @azpresid... · 20 окт.
Rəşadətli Azərbaycan Ordusu tərəfindən Füzuli rayonunun Dördçinar, Kürdlər, Yuxarı Əbdürrəhmanlı, Qarğabazar, Aşağı Veysəlli, Yuxarı Aybasanlı, Cəbrayıl rayonunun Safarşa, Həsənqaydı, Fuğanlı, İmambağı, Daş Veysəlli, Ağtəpə, Yarəhmədli,

**İlham Əliyev** @azpresid... · 20 окт.
Xocavənd rayonunun Ağcakənd, Mülküdərə, Daşbaşı, Günəşli, Çinarlı, Zəngilan rayonunun Havalı, Zərnəli, Məmmədbəyli, Həkəri, Şərifan, Muğanlı kəndləri və Zəngilan şəhəri işğaldan azad edilib. Eşq olsun Azərbaycan xalqına! Qarabağ Azərbaycandır!

**İlham Əliyev** @azpres... · 21 окт.
Rəşadətli Azərbaycan Ordusu Zəngilan rayonunun Mincivan qəsəbəsi, Xurama, Xumarlı, Sarıl, Babaylı, Üçüncü Ağalı, Hacallı, Qırax Müşlan, Üdgün,

**İlham Əliyev** @azpres... · 21 окт.
Turabad, İçəri Müşlan, Məlikli, Cahangirbəyli, Baharlı kəndlərini işğaldan azad etdilər. Eşq olsun Azərbaycan Ordusuna! Qarabağ Azərbaycandır!

**İlham Əliyev** @azpres... · 21 окт.
Rəşadətli Azərbaycan ordusu Füzuli rayonunun Gecəgözlü, Aşağı Seyidəhmədli, Zərgər kəndlərini,

**İlham Əliyev** @azpres... · 21 окт.
Cəbrayıl rayonunun Bələnd, Papı, Tulus, Hacılı, Tinli kəndlərini işğaldan azad etdi. Eşq olsun Azərbaycan Ordusuna! Qarabağ Azərbaycandır!

# İlham ƏLİYEV,
# Ali Baş Komandan




## "Mən çox şadam və mən xoşbəxt adamam ki, bu şad xəbərləri Azərbaycan xalqına çatdırıram"

- Torpaqlarımızı 30 ilə yaxın işğal altında saxlayan düşmən döyüş meydanında Azərbaycan Ordusunun gücünü görür. Biz öz torpağımızda vuruşuruq, öz torpağımızı qoruyuruq və işğalçıları bundan sonra da öz torpaqlarımızdan qovacağıq.

- Xalqımız döyüş meydanından, cəbhə bölgəsindən səbirsizliklə yeni xəbərlər gözləyir. Mən çox şadam və mən xoşbəxt adamam ki, bu şad xəbərləri Azərbaycan xalqına çatdırıram.

- Onlar döyüş meydanında məğlubiyyətə uğrayır, Azərbaycan Ordusunun qarşısında duruş gətirə bilmir və bizi durdurmaq üçün, bizə zərbə vurmaq üçün bütün dünyanın gözü önündə mülki əhaliyə qarşı cinayət törədir.

- Biz Böyük Qayıdış astanasındayıq və Azərbaycan dövləti əlindən gələni edəcək ki, Azərbaycan vətəndaşları işğal olunmuş və azad edilmiş torpaqlara qayıdaraq rahat yaşasınlar, əmin-amanlıq şəraitində yaşasınlar və bu torpaqlarda həyat canlanacaqdır.

- Mən bir daha bəyan edirəm ki, verilmiş bütün vədləri mən yerinə yetirirəm, verilmiş bütün vədlərə sadiqəm. Prezident kimi mənim fəaliyyətim üçün əsas məsələ, əsas vəzifəm Azərbaycan torpaqlarının qaytarılmasıdır, ərazi bütövlüyünün bərpa edilməsidir və bu gün biz bunu döyüş meydanında edirik.

- Ona görə, bu gün Ermənistan rəhbərliyi yaxşı fikirləşməlidir. Artıq bizim qarşımızda diz çöküb, onlara diz çökdürmüşük, onlara layiq olan yeri göstərmişik. Qovuruq onları bizim torpaqlarımızdan, bundan sonra da qovacağıq!

- Biz haqq yolundayıq. Bizim işimiz haqq işidir. Biz öz torpağımızda vuruşuruq, şəhidlər veririk, öz ərazi bütövlüyümüzü bərpa edirik. Bundan sonra da bu addımlar atılacaq. Ermənistan hələ nə qədər gec deyil bəyanat verməlidir ki, işğal edilmiş torpaqlardan çıxıram. Ondan sonra döyüşlər dayana bilər.

- Mən hər dəfə xalqıma müraciət edərkən xoş xəbərlər çatdırıram. Eyni zamanda, demək olar ki, hər gün öz "Twitter" hesabımda, "Twitter" vasitəsilə işğaldan azad edilmiş yeni kəndlərin, şəhərlərin adlarını çəkirəm.

- Əziz xalqım, əziz zəngilanlılar, füzulilər, xocavəndlilər, cəbrayıllılar və işğal edilmiş digər rayonların sakinləri, biz öz missiyamızı yerinə yetiririk. Düşmənə layiqli cavab veririk. Düşməni cəzalandırırıq. Düşmən bizim qarşımızda acizdir. Düşmənin belini qırırıq, qıracağıq! Qarabağ bizimdir! Yaşasın Azərbaycan! Eşq olsun Azərbaycan xalqına!

# Hər gün sizin verəcəyiniz şad xəbərləri səbirsizliklə gözləyirik



## Məktəblilər Ali Baş Komandana yazırlar: "Hər zaman Sizin arxanızda, Ordumuzun yanındayıq"

**Hörmətli Prezident və Ali Baş Komandan!**

Mən Duyğu Xudadatova, 283 saylı tam orta məktəbin 7a sinfində oxuyuram. Bu məktubu yazmaqla sizə sonsuz təşəkkürümü və minnətdarlığımı bildirmək istəyirəm! Mən əslən Qarabağın gözəl guşələrindən biri olan Ağdam şəhərindənəm. Mən Qarabağı görməsəm də, valideynlərimdən onun gözəlliyi və heyrətamiz təbiəti haqqında çox eşitmişəm. İnşallah sizin sayənizdə torpaqlarımızı erməni tapdağı altından azad edəcəyik! Hər gün ailəmizlə birlikdə sizin verəcəyiniz şad xəbərləri səbirsizliklə gözləyirik. Biz sizə inanırıq və güvənirik. Erməni faşistlərinin dinc əhalini hədəf almaqla həmyaşıdlarımın amansız ölüm xəbəri məni daha çox sarsıdır. Sizin onlara verdiyiniz cavablar məni daha da qürurlandırır! Biz inanırıq ki, bu müharibə tezliklə başa çatacaq. Azərbaycan yenidən öz ərazi bütövlüyünü bərpa edəcək! Biz hər zaman sizinləyik və olacağıq.

Qarabağ Bizimdir! Qarabağ Azərbaycandır! Tarix yazan Sərkərdə, cənab Ali Baş Komandan İlham Əliyev.

Hörmətlə,

**Xudadatova Duyğu Anar qızı**
*Bakı şəhəri, Binəqədi rayonu*

**Dəyərli cənab Prezidentimiz İlham Əliyev.**

Mən 74 saylı tam orta məktəbin 9-cu sinif şagirdiyəm. Mən bir şagird olaraq çox sevinirəm ki, Azərbaycan Respublikasının sizin kimi müdrik və uzaqgörən bir Prezidenti var. Sizin hər çıxışınızı həvəslə və sevərək izləyirik. Qarabağ hər bir Azərbaycan vətəndaşının dəyişməz arzusudur. Cənab Ali Baş Komandan, biz çox yaxın zamanda sizin rəhbərliyiniz altında doğma yurdumuzun ayrılmaz hissəsi olan - Qarabağı erməni işğalçılarından azad edəcəyik. Mən inanıram ki, Qarabağın hər bölgəsində Azərbaycan bayrağı dalğalanacaq. Ulu öndərimiz Heydər Əliyevin dediyi kimi: Mən fəxr edirəm ki, Azərbaycanlıyam. Azərbaycan güclü Dövlətdir və Azərbaycanın Güclü ordusu var!

#Qarabağ Azərbaycandır!

Hörmətlə,

**Mütəllimova Aytac Zaur qızı,**
*Bakı şəhəri, Bakıxanov qəsəbəsi*

**Hörmətli Prezident, cənab Ali Baş Komandan!**

Sizin komandanlığınızla rəşadətli Ordumuz tərəfindən düşmənin təxribatlarının qarşısı qəhrəmanlıqla alınır və bu, məni hədsiz dərəcədə qürurlandırır. Sizə və Ordumuza güvənirik.

Şamaxıda yaşayan hər bir şəxsdə böyük ruh yüksəkliyi vardır. Hamımız həsrətlə Qələbə gününü gözləyirik. İnanırıq ki, tezliklə xalqımız bu Qələbə sevincini yaşayacaq və üçrəngli Bayrağımız Qarabağda, Şuşada dalğalanacaq. O zaman şəhidlərimizin ruhu da şad olacaq.

Cənab Prezident, hər zaman Sizin arxanızda, Ordumuzun yanındayıq. Bu çətin və şərəfli yolda, haqq işinizdə Sizə yeni uğurlar arzulayıram.

Uca Allahdan diləyirəm ki, əsgərlərimizi və xalqımızı qorusun!

Qarabağ Azərbaycandır!

Hörmətlə,

**Zülfüqarov Əli Qismət oğlu,**
*Şamaxı şəhər 3 saylı tam orta məktəbin şagirdi*

**Hörmətli Prezidentimiz.**

Sizi salamlayan 11 yaşlı Ümiddir. Mən Ermənistanla həmsərhəd olan Tovuz rayonunda yaşayıram. Tez-tez erməni faşistlərin hücumlarına məruz qalan bir rayonun sakini kimi mən də bu haqsızlığa son qoyulmasını arzulayıram. Bildiyiniz kimi, bu ilin iyul ayında da düşmənin ağır hücumuna məruz qaldıq. Mən daim erməni təhdidi altında yaşamaqdan bezmişəm. Ona görə Sizə müraciət edirəm.

Cənab Prezident, işğal altında olan torpaqlarımızı azad edən əsgərlərimizə kömək etmək istəyirəm. Onların yanına gedərək igid əsgərlərimizə yemək, su, silah-sursat daşıya bilərəm. Vətənimizin bu ağır günlərində əlimdən gələn köməyi etməyə hazıram.

Cənab Prezident, inanıram ki, Qələbə bizim olacaq.

Hörmətlə,

**Ümid Abdıyev,**
*Tovuz rayonu, Abdulbəyli kəndi, şagird*

**Cənab Prezidentimiz.**

Mən 16 yaşlı əlil şagirdəm. Əlilliyimə görə 18 yaşına çatana qədər dövlət mənə müavinət təyin etmişdir. Sizin Ordumuza göstərdiyiniz qayğıdan fərəhlənərək və qazandığınız böyük nailiyyətlərə arxalanaraq bu məktubu yazmaq qərarına gəldim.

Hörmətli Prezident, mən də aylıq müavinətimdən 20 manat pul vəsaitini Ordumuza yardım fonduna keçirmək qərarı vermişəm. Çünki Ordumuza güvənirəm. Hər zaman güvənc yerim olan dəyərli bir xalqım var! Xalqımızla qürur duyuram. İnanıram ki, üçrəngli Bayrağımızı bütün itirdiyimiz torpaqlarda tezliklə dalğalandıracağıq. Bu sevincli, əzəmətli günlərə az qalıb. Sizin dediyiniz qürurverici sözlərə qüvvət olaraq mən də deyirəm: Qarabağ bizimdir, Qarabağ Azərbaycandır!

Hörmətlə,

**Limon Əliyeva,**
*Şəki rayonu, Baş Göynük kəndi, şagird*

**Salam, cənab Prezident.**

Siz bizim və dövlətimizin, xalqımızın, əsgərlərimizin həmişə arxasındasınız və olacaqsınız. Qarabağ bizimdir və bizim olacaq. Bayrağımız işğal olunmuş rayonlarımızda sancılacaq inşallah.

Allah Sizə dayaq olacaq cənab İlham Əliyev. Siz bizim dayağımızsınız.

Allah Sizi və əsgərlərimizi, xalqımızı, dövlətimizi qorusun. Allah Sizə kömək olsun. Amin.

Hörmətlə,

**Əliyeva Aydan Elnur qızı,**
*Ağcabədi rayonu, Yeni Qaradolaq kəndi, 6-cı sinif şagirdi*

## Birinci vitse-prezident Mehriban ƏLİYEVA



# Füzuli, Cəbrayıl, Xocavənd, Zəngilan rayonlarının bir sıra kəndlərinin və Zəngilan şəhərinin işğaldan azad olunması münasibətilə xalqımızı təbrik edirəm

**Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyeva Füzuli, Cəbrayıl, Xocavənd, Zəngilan rayonlarının bir sıra kəndlərinin və Zəngilan şəhərinin işğaldan azad olunması ilə bağlı rəsmi "Instagram" səhifəsində paylaşım edib. AZƏRTAC paylaşımı təqdim edir:**

**"Füzuli, Cəbrayıl, Xocavənd və Zəngilan rayonlarının bir sıra kəndlərinin və Zəngilan şəhərinin işğaldan azad olunması münasibətilə xalqımızı təbrik edirəm. Yaşasın Azərbaycan xalqı və Azərbaycan Ordusu! Uca Tanrı xalqımızı, Vətənimizi və Prezidentimizi qorusun! Qarabağ Azərbaycandır!".**

## Qoy Azərbaycanın müstəqilliyi əbədi olsun!

Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyeva rəsmi "Instagram" hesabında Müstəqillik Günü ilə bağlı paylaşım edib.

AZƏRTAC paylaşımı təqdim edir:

Bu günlərdə bütün dünya ictimaiyyəti Azərbaycan xalqının yenilməz iradəsinin, qətiyyətinin, əzminin, birlik və həmrəyliyinin, Vətənə sadiqliyinin şahididir. Əminəm ki, xalqımızın məhz bu xüsusiyyətləri bizə qarşımızda dayanan bütün vəzifələrin öhdəsindən uğurla gəlməyə, o cümlədən müstəqilliyimizi qoruyub saxlamağa hər zaman kömək edəcəkdir. Qoy Azərbaycanın müstəqilliyi əbədi olsun! Uca Tanrı xalqımızı, Vətənimizi qorusun!

## "Hər bir Azərbaycan əsgərinin və zabitinin həyatı və sağlamlığı üçün dua edirəm"

Bu gün bizim ordumuz əzəli Azərbaycan torpaqlarını işğaldan azad etməklə milyonlarla azərbaycanlının arzularını həyata keçirir.

AZƏRTAC xəbər verir ki, bu barədə Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyevanın rəsmi "Instagram" hesabında edilən paylaşımda deyilir:

"Azərbaycan Ordusunun növbəti qələbəsi! Füzuli şəhəri və Füzuli rayonunun bir sıra kəndləri işğaldan azad edilib. İllər boyu bir çox soydaşımız Vətən həsrəti ilə yaşayıb! Nə qədər həmvətənimiz doğma diyarını heç olmasa bir dəfə də olsun yenidən görmək arzusunda idi! Bu gün bizim ordumuz əzəli Azərbaycan torpaqlarını işğaldan azad etməklə milyonlarla azərbaycanlının arzularını həyata keçirir. Bu, ədalətin təntənəsidir! Ona görə ki, bu yerlər bizim doğma torpaqlarımızdır, əcdadlarımızın torpaqlarıdır. Hər bir Azərbaycan əsgərinin və zabitinin həyatı və sağlamlığı üçün dua edirəm. Uca Tanrı ordumuzu, xalqımızı, Vətənimizi və Prezidentimizi qorusun! Qarabağ Azərbaycandır!"

## "Gəncə Azərbaycanın döyünən ürəyidir və heç kəs heç vaxt onun sakinlərinin məğrur ruhunu sındıra bilməz!"

Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyeva Ermənistanın Gəncədə törətdiyi terror aktı ilə bağlı rəsmi "Instagram" səhifəsində daha bir paylaşım edib. AZƏRTAC paylaşımı təqdim edir.

Bu gecə erməni təcavüzkarları Gəncəyə xaincəsinə hücum ediblər.

Niyyət sadə və eyni zamanda, dəhşətlidir - mümkün qədər çoxsaylı dinc sakinləri məhv etmək, panika yaratmaq, Azərbaycan xalqını qorxutmaq.

Lakin təcavüzkar heç vaxt öz çirkin məqsədlərinə nail olmayacaq. Bu şanlı şəhərin sakinləri ruhən çox güclüdürlər! Gəncə - Nizamidir, Məhsətidir, Vazehdir! Lakin Gəncə təkcə Azərbaycanın mədəni irsi deyil.

Gəncə - qədim dövlətçiliyimizin beşiyidir.

Bu, sarsılmaz dözüm, mərdlik və igidlik rəmzidir!

Gəncə Cavadxanın yurdudur. Bu şəhər Şərqdə ilk demokratik cümhuriyyətin müstəqilliyi uğrunda sona qədər vuruşmuş şəhərdir.

Gəncə Azərbaycanın döyünən ürəyidir və heç kəs heç vaxt onun sakinlərinin məğrur ruhunu sındıra bilməz!

## "Dünya ictimaiyyətini Ermənistanın müharibə cinayətlərini qınamağa çağırıram"

**Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyeva rəsmi "Instagram" səhifəsində paylaşım edib.**

**AZƏRTAC xəbər verir ki, paylaşımda deyilir: "Nə dərəcədə insaniyyətdən kənar, rəhmsiz və mənəvi tənəzzülə uğramış olmalısan ki, dəfn mərasimi zamanı qəbiristanlığı qəsdən atəşə tutasan? Dünya ictimaiyyətini Ermənistanın müharibə cinayətlərini qınamağa çağırıram. Həlak olanların ailələrinə və doğmalarına başsağlığı verirəm. Allah rəhmət eləsin".**

## "Dinc vətəndaşların məqsədyönlü şəkildə hədəfə alınması insanlığa qarşı cinayətdir"

Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyeva Ermənistanın Gəncəyə növbəti raket hücumu ilə bağlı rəsmi "Instagram" səhifəsində paylaşım edib. AZƏRTAC xəbər verir ki, paylaşımda deyilir:

"Nə dərəcədə insanlıqdan uzaq, yırtıcı olmalısan ki, şəhərin heç bir hərbi infrastrukturun olmadığı yaşayış məhəllələrinə gecə vaxtı, sakinlər yatarkən raket zərbələri endirilməsi barədə növbəti dəfə əmr verəsən?

Bu gecə Gəncəyə xaincəsinə edilən hücum təkcə Ermənistan hakimiyyətinin faşist mahiyyətinə və onun prinsipsizliyinə dəlalət etmir, həm də təcavüzkarın Azərbaycan Ordusu qarşısında total acizliyinin təzahürüdür.

Dinc vətəndaşların məqsədyönlü şəkildə hədəfə alınması insanlığa qarşı cinayətdir. Bu cinayətə laqeyd qalmaq isə onun iştirakçısına çevrilmək deməkdir!

Bu faciə nəticəsində həlak olanların ailələrinə və doğmalarına dərin hüznlə başsağlığı verirəm və bütün yaralıların tezliklə sağalmasını arzulayıram.

Ulu Tanrı xalqımızı, Vətənimizi və Prezidentimizi qorusun! Qarabağ Azərbaycandır!".

## Xüsusi karantin rejimi dövründə Azərbaycan Respublikasının ərazisində fəaliyyət göstərən təhsil müəssisələrinin fəaliyyəti ilə bağlı əlavə tədbirlər barədə

### Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarı

"Sanitariya-epidemioloji salamatlıq haqqında" Azərbaycan Respublikası Qanununun 25-ci maddəsinə və Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2020-ci il 28 fevral tarixli 73-1 nömrəli Qərarı ilə təsdiq edilmiş "Yoluxucu, parazitar və kütləvi qeyri-yoluxucu xəstəliklərin əmələ gəlməsi, yaxud yayılması təhlükəsi yarandıqda karantin-təşkilat, profilaktika və digər zəruri tədbirlərin görülməsi Qaydaları"na əsasən Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

**1.** Azərbaycan Respublikasının ərazisində 2020-ci il 19 oktyabr tarixindən 2 noyabr tarixinədək:

1.1. məktəbəqədər, məktəbdənkənar və əlavə təhsil müəssisələri istisna olmaqla, bütün təhsil müəssisələrində əlavə tətil günləri (ümumi təhsil müəssisələrində payız tətili ilə əvəz olunmaqla) müəyyən edilsin;

1.2. məktəbəqədər, məktəbdənkənar və əlavə təhsil müəssisələrinin fəaliyyəti dayandırılsın.

**2.** Azərbaycan Respublikasının Təhsil Nazirliyi, tabeliyində təhsil müəssisələri olan digər icra hakimiyyəti orqanları və dövlət mülkiyyətində olan və ya paylarının (səhmlərinin) nəzarət zərfi dövlətə məxsus olan hüquqi şəxslər və özəl təhsil müəssisələrinin təsisçiləri bu Qərarın icrası ilə bağlı zəruri tədbirlərin görülməsini təmin etsinlər.

**Əli ƏSƏDOV,**
**Azərbaycan Respublikasının**
**Baş Naziri**

*Bakı şəhəri, 16 oktyabr 2020-ci il*

## "Təhsilə yeni baxış" adlı onlayn müzakirə

Oktyabrın 21-də Təhsil Nazirliyinin təşəbbüsü və Təhsil İnstitutunun tərəfdaşlığı ilə "Təhsilə yeni baxış" adlı onlayn müzakirə keçirilib. Müzakirə Təhsil Nazirliyi yanında İctimai Şuranın sədri Şahlar Əsgərovun mətbuatda dərc edilən və geniş maraq doğuran eyniadlı məqaləsinin tezisləri ətrafında aparılıb.

Təhsil nazirinin müşaviri Elnur Nəsibov müzakirəni açaraq Ali Baş Komandan cənab İlham Əliyevin rəhbərliyi altında rəşadətli ordumuzun qələbələri münasibəti ilə iştirakçıları təbrik edib. Elnur Nəsibov bildirib ki, professor Şahlar Əsgərovun "Təhsilə yeni baxış" adlı məqaləsində qeyd edilən əsas tezislərdən biri vətənpərvərlikdir. Bu tezis Prezident İlham Əliyevin Emin Əmrullayevi Təhsil naziri təyin olunması ilə əlaqədar videoformatda qəbulunda da xüsusilə önə çəkilib və gənclərin vətənpərvərlik ruhunda tərbiyəsi istiqamətində təkmilləşdirmə işlərinin aparılması tapşırıq kimi qarşıya qoyulub.

Daha sonra çıxış edən Təhsil İnstitutunun direktoru səlahiyyətlərini müvəqqəti icra edən, direktor müavini Anar Nağıyev tariximizin şərəfli səlnaməsinin yazıldığı vaxtda təhsillə bağlı vacib məsələlərin müzakirəsinin davam etdirilməsinin əhəmiyyətini vurğulayıb. Anar Nağıyev Şahlar Əsgərovun "Təhsilə yeni baxış"ının əhatə etdiyi tezislərinin fəlsəfi və praktiki baxımdan müzakirəsinin vacibliyini qeyd edib.

Məqalənin müəllifi Şahlar Əsgərov müzakirənin təhsilə olan dəyərin göstəricisi olduğunu bildirərək təşkilatçılara təşəkkür edib. Şahlar Əsgərov qeyd edib ki, təhsilin ali məqsədi savadlı, bilikli şəxsiyyətlər yox, kamil insan yetişdirmək olmalıdır. Bunun üçün təhsilə baxış dəyişməli, təhsilin paradiqması yenilənməlidir. Təhsil düzgün qərarlar qəbul etmək səriştəsi formalaşdırmalı, təhsil prosesinin iştirakçıları cəmiyyətin və bəşəriyyətin inkişafına töhfə kimi dəyərləndirilməlidir. Müharibə zamanı ordu komandirləri hansı dərəcədə önəm daşıyırsa, əmin-amanlıq dövründə də təhsil generalları (məktəb direktorları) həmin önəmi daşımalıdırlar.

Təhsilin məzmununa baxışın dəyişilməsinin vacibliyini vurğulayan Şahlar Əsgərov qeyd edib ki, vətənpərvərliyin açarı təhsilin məzmunundadır.

Müzakirələrdə Təhsil İnstitutunun direktor müavini Ənvər Abbasov, şöbə müdirləri Piralı Əliyev, Akif Abbasov, Hümeyir Əhmədov, İntiqam Cəbrayılov, Təhsil Nazirliyi yanında İctimai Şuranın katibi İlqar Orucov, təhsil eksperti Qoşqar Məhərrəmov, təhsilin idarə olunması ixtisası üzrə mütəxəssis Cəfər Mənsimi və digərləri çıxış ediblər. Çıxışçılar təhsillə bağlı yazılan məqalənin nazirlik tərəfindən müzakirəyə çıxarılmasını təhsilə yeni yanaşmanın bir aspekti kimi dəyərləndiriblər.

## Azərbaycanın "World Skills International" təşkilatına üzvlüyü təsdiq edilib




Azərbaycanın nümayəndə heyəti "World Skills International" (WSI) təşkilatının Ümumi yığıncağına qatılıb. Görüş WSI təşkilatının İdarə heyətinin, regional qurumlar və üzv dövlətlərin, eləcə də tərəfdaş təşkilatların rəsmi nümayəndələrinin iştirakı ilə onlayn formatda təşkil edilib. Tədbir zamanı Azərbaycanın WSI təşkilatına 85-ci üzv kimi qəbul edilməsi Ümumi yığıncaq tərəfindən təsdiq olunub.

"World Skills International" dünyada peşə bacarıqlarını təbliğ edən və peşələrin olimpiadası kimi tanınan beynəlxalq bir təşkilatdır.

Qeyd edək ki, növbəti yarışlar 2021-ci ilin sentyabr ayında Çinin Şanxay şəhərində keçiriləcək. Azərbaycanın həmin yarışlarda iştirakı nəzərdə tutulur.

# "Azərbaycanda Milli Kvalifikasiyalar Çərçivəsinin İcrasına Dəstək" layihəsinin konfransı




**Avropa İttifaqı ilə birgə icra olunan layihə təhsil və təlim sisteminin keyfiyyətini artırmaq məqsədinə xidmət edir**

Oktyabrın 20-də Avropa İttifaqı (Aİ) ilə birgə icra olunan, təhsil və təlim sisteminin keyfiyyətini artırmaq məqsədinə xidmət edən "Azərbaycanda Milli Kvalifikasiyalar Çərçivəsinin İcrasına Dəstək" (MKÇ) layihəsinin onlayn formatda yekun konfransı keçirilib.



Tədbirdə Təhsil naziri Emin Əmrullayev, Əmək və Əhalinin Sosial Müdafiəsi naziri Sahil Babayev, Aİ-nin ölkəmizdəki nümayəndəliyinin rəhbəri Kestutis Jankauskas, Azərbaycan Dövlət Pedaqoji Universitetinin rektoru Cəfər Cəfərov, Texniki yardım qrupunun rəhbəri Trevor Kuk, baş ekspert İlkin Nəzərov və digər şəxslər iştirak ediblər.

Təhsil naziri Emin Əmrullayev konfransı giriş sözü ilə açaraq, Ali Baş Komandan, ölkə Prezidenti cənab İlham Əliyevin rəhbərliyi altında rəşadətli Azərbaycan Ordusunun ərazi bütövlüyümüzün təmin edilməsi uğrunda apardığı uğurlu əməliyyatları qeyd edib. Nazir təəssüf hissi ilə Ermənistanın təcavüzü nəticəsində məktəblilərin həlak olduğunu və yaralandığını, məktəblərin mütəmadi atəşə məruz qaldığını bildirib. Təhsil naziri hərbi vəziyyət rejimi, eləcə də COVID-19 pandemiyasının məhdudiyyətləri çərçivəsində təhsilin təşkili və təhsil sisteminin qarşısında duran vəzifələrdən danışıb.

Nazir daha sonra iqtisadiyyatın inkişafı və diversifikasiyası baxımından səriştə əsaslı kadr hazırlığı prosesində işəgötürənlərlə təhsilverənlər arasında əməkdaşlığın möhkəmləndirilməsinin, peşə təhsilinə diqqətin artırılmasının, qeyri-formal və informal təhsilin tanınmasının əhəmiyyətindən bəhs edib.

Emin Əmrullayev son illərdə Təhsil Nazirliyinin Təhsil İnstitutu ilə birlikdə həyata keçirdiyi səriştə əsaslı və bacarıqların inkişafına hədəflənmiş "Peşə təmayül siniflər" və "STEAM" layihələri barədə danışıb.

Təhsil naziri ölkəmizdə MKÇ-nin geniş şəkildə icrasını təmin etmək məqsədilə sözügedən layihə çərçivəsində müvafiq hüquqi-normativ-institusional bazanın yaradılması, qeyri-formal və informal yollarla əldə edilmiş səriştələrin tanınması, səriştə əsaslı peşələr üzrə pilot təlimlərin keçirilməsi, müvafiq tədris resurslarının hazırlanması və keyfiyyətin təminatı sahəsində aparılmış işləri yüksək qiymətləndirib.

Əmək və Əhalinin Sosial Müdafiəsi naziri Sahil Babayev Prezident, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Ordumuzun zəfər yürüşünün ölkədə ümumxalq Qələbə əhvali-ruhiyyəsi yaratdığını vurğulayıb. Nazir Ermənistanın mülki əhaliyə qarşı terror həyata keçirməklə beynəlxalq humanitar normaları kobud şəkildə pozduğunu da qeyd edib.

O, çıxışında bildirib ki, ölkə Prezidenti cənab İlham Əliyevin uğurlu sosial-iqtisadi siyasəti nəticəsində Azərbaycan iqtisadiyyatının dinamik inkişafına, habelə iqtisadiyyatın şaxələndirilməsinə, qeyri-neft sektorunun yeni dəyər yaradan sahələrinin tərəqqisinə nail olunub. Bu proseslər əmək bazarında rəqabətqabiliyyətli və yüksək ixtisaslı kadrlara olan tələbatı artırır və bununla əlaqədar peşə təhsili və təlimi sisteminin bu tələbata uyğun qurulmasının vacibliyini şərtləndirir. Nazir bildirib ki, əmək bazarında aparılmış sorğu əsasında iqtisadiyyatın prioritet sahələri üzrə 300 peşə və kvalifikasiya standartı hazırlanıb. Bu ilin sonunadək həmin standartlar təsdiqlənərək Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin elektron xidmətlər portalı üzərindən fəaliyyət göstərəcək "Peşə və Kvalifikasiya standartlarının Reyestri"ndə yerləşdiriləcək.

Sahil Babayev deyib ki, peşə və kvalifikasiya standartlarının tətbiqi təhsil proqramlarının dəyişən əmək bazarının tələblərinə uyğunlaşdırılmasında əsas rola malikdir. Növbəti il daha 350 peşə və kvalifikasiya standartının hazırlanması üçün artıq müvafiq işlərə başlanılıb. Həmçinin nazirliyin tabeliyindəki Dövlət Məşğulluq Agentliyinin 4 Regional Peşə Təhsili Mərkəzinin olduğunu və onların sayının 2030-cu ilədək 10-a çatdırılacağını bildirib.

Nazir "Azərbaycanda Milli Kvalifikasiyalar Çərçivəsinin icrasına dəstək" layihəsi çərçivəsində görülmüş işlərin əmək bazarı və təhsil sistemi üçün əhəmiyyətini diqqətə çatdırıb. Nazirliyin mütəxəssislərinin də yaxından iştirak etdiyi layihə üzrə 24 peşə və 24 kvalifikasiya standartının, müvafiq olaraq kurikulumların hazırlandığını deyib. Sahil Babayev layihədə əməyi olan bütün iştirakçılara təşəkkürünü bildirib.

Avropa İttifaqı Nümayəndəliyinin rəhbəri Kestutis Yankauskas çıxışında sürətlə inkişaf edən cəmiyyətdə ömürboyu təhsilə çıxış imkanlarının çevik, alternativ yollar, qeyri-formal və informal təhsilin tanınması yolu ilə yaxşılaşdırılması üçün böyük tələbatın olduğunu bildirib. Avropa İttifaqının Azərbaycanda tələbəyönümlü və səriştə əsaslı təhsil sisteminin Avropa İttifaqı standartlarına yaxınlaşdırılmasını dəstəklədiyini vurğulayıb. K.Yankauskas layihənin fəaliyyətlərinin Milli Kvalifikasiyalar Çərçivəsində nəzərdə tutulan məqsədlərin - təhsilalanlar, işəgötürənlər və təhsil təminatçıları üçün asan qavranılması, kvalifikasiyalara etimadın gücləndirilməsi, əvvəlki təhsilin tanınması və kreditlərin köçürülməsi yolu ilə ömürboyu təhsilin dəstəklənməsi kimi məqsədləri əhatə etdiyini deyib.

Daha sonra Azərbaycan Dövlət Pedaqoji Universitetinin rektoru Cəfər Cəfərov layihə çərçivəsində keçirilmiş pilot layihələrin nəticələrinə dair çıxış edib, layihənin texniki yardım qrupunun rəhbəri Trevor Kuk və layihənin baş eksperti İlkin Nəzərov layihə fəaliyyətləri və əldə olunmuş nəticələr, qanunvericilik, institusional tərəfdaşlıq və maraqlı tərəflərin cəlb olunması fəaliyyəti ilə bağlı təqdimat ediblər.

Konfransın sonunda Təhsil naziri Emin Əmrullayev layihədə əməyi olanlara, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinə, Avropa İttifaqının Azərbaycandakı Nümayəndəliyinə, beynəlxalq ekspertlərə təşəkkürünü bildirib.

# "Azərbaycanın hər bir məktəbində təhsil bərpa olunacaq"

Oruc MUSTAFAYEV

## *Emin Əmrullayev:*
## "Ərazilərin işğaldan azad olunması təhsil sistemi üçün də yeni imkanlar açır"

Məlum olduğu kimi, yeni tədris ilinin başlanması dünyanın bir sıra ölkələrində pandemiyanın yeni yoluxma hallarının sürətlə yayılması ilə müşayiət olunmaqdadır. Təhsil prosesinin bütün iştirakçıları üçün ciddi fəsadları nəzərə alınaraq hökumətlər tərəfindən virusun yeni dalğasının qarşısını almaq məqsədilə bir sıra təxirəsalınmaz tədbirlər görülməkdədir. Ölkəmizdə də pandemiyaya yeni yoluxma hallarının sürətlə artaraq 500-ü keçməsi ilə əlaqədar Nazirlər Kabineti tərəfindən ölkəmizin ümumtəhsil sistemində tətil elan olunması ilə bağlı qərar qəbul olunub. Oktyabrın 16-da Nazirlər Kabineti yanında Operativ Qərargahda Təhsil naziri Emin Əmrullayevin iştirakı ilə keçirilən brifinqdə ölkəmizin ümumi təhsil sistemində yaranmış vəziyyətlə bağlı məsələlərə aydınlıq gətirilib.





### Təhsildə riskli vəziyyət

Təhsil naziri Emin Əmrullayev ümumi təhsil müəssisələrində yeni tədris ilinin başlanmasından sonrakı vəziyyətlə bağlı məlumat verib. Sentyabrın 15-dən bu günədək 1 milyon 300 mindən artıq şagirdin əyani təhsilə cəlb olunduğunu deyən E. Əmrullayev son günlər COVID-19-a yoluxma hallarının sürətlə artması və ölkədə hazırda üz-üzə qaldığımız hərbi vəziyyət də nəzərə alınmaqla təhsil sistemi üçün riskli bir vəziyyətin yarandığını diqqətə çatdırıb. "Məlum olduğu kimi, təhsil sahəsi kifayət qədər böyük bir sistemdir: 2 milyona yaxın təhsilalanı və bir neçə yüz min təhsil işçisini özündə birləşdirir. Təbii ki, yoluxma saylarının atması öz-özlüyündə həmin müəssisələrdə artıma daha da təkan verə biləcək riskli yerlər kimi qiymətləndirilir". Nazir əlavə edib ki, məhz bunları nəzərə alaraq Nazirlər Kabinetinin qərarına əsasən Azərbaycan Respublikasının ərazisində oktyabrın 19-dan noyabrın 2-dək bütün təhsil müəssisələrində tətil elan edilib. "Düşünürük və inanmaq istəyirik ki, iki həftə ərzində virusun yayılmasının qarşısı alına bilər. Biz həm də dinamikanı başa düşüb ayrı-ayrı yerlərdə, bölgələrdə daha düzgün müvafiq qərarlar verə bilərik".

### 40-a yaxın məktəb dağıntılara məruz qalıb

Təhsil naziri ikihəftəlik tətilin elan olunması ilə bağlı qərarın arxasında duran bəzi rəqəmləri diqqətə çatdırıb. Sentyabrın 27-dən düşmən Ermənistanın təcavüzü nəticəsində Azərbaycanın bir çox bölgələrində həm təhsil müəssisələrinə, həm mülki əhaliyə qarşı, raket atəşləri də daxil olmaqla kifayət qədər aqressiv və insanlığa yaraşmayan hücumlar baş verib. Təbii ki, bütün bu vəziyyət, cəbhə xəttində olan məktəblərimizə də təsirsiz ötüşməyib. 40-a yaxın məktəb bu və ya digər formada dağıntılara, məktəb binaları raket atəşinə məruz qalıb. Eyni zamanda Ermənistanın təcavüzü nəticəsində 3 şagirdimiz həlak olub, 15-ə yaxın məktəbli bu və ya digər dərəcədə müxtəlif bədən xəsarətləri alıb. Ermənistan silahlı qüvvələrinin mülki əhaliyə və obyektlərə hücumları nəticəsində 340 min şagird tədrisdən kənarda qalıb. Nəticə etibarilə bölgələrimizdə 1221 təhsil müəssisəsi bu səbəbdən öz fəaliyyətini distant təhsilə keçirib. E.Əmrullayev qeyd edib ki, mövcud şəraitdə cəbhə bölgələrində tədrisin uyğun şəkildə təşkili kifayət qədər problemlidir. "Təbii ki, müharibə şəraitində dinc əhali olaraq məktəblərə, şagirdlərə, təhsil işçilərinə, sosial infrastruktura qarşı qəsdən törədilən cinayət, inanıram ki, hal-hazırda öz layiqli cavabını almaqdadır. Hər gün sevincli xəbərlər eşidirik. Bu xəbərlərin davamlı olmasına əminik və inanırıq ki, ölkə başçısının, Ali Baş Komandanın rəhbərliyi ilə Azərbaycan ordusu çox qısa zaman ərzində ölkəmizin işğal altında olan torpaqlarını azad edəcək və Azərbaycanın hər bir məktəbində, hər bir təhsil müəssisəsində təhsil bərpa olunacaq. Yaşadığımız bu günlər xalqımız, dövlətimiz, insanlarımız üçün tarixi əhəmiyyət daşıyan bir dövrdür".

### "Yoluxma zəncirini qıra biləcəyik"

Təhsil naziri vurğulayıb ki, hazırda bir sıra dünya ölkələrində, Avropada koronavirusun ikinci dalğasını müşahidə edirik. Bu prosesin qaçılmaz olduğunu deyən nazir əlavə edib ki, payızın gəlməsi və məhdudiyyətlərin aradan qaldırılması nəticəsində yoluxmanın artması gözlənilləndir. "Amma eyni zamanda da biz cəmiyyət olaraq, xalq olaraq, vətəndaş olaraq başa düşməliyik ki, Azərbaycan üçün biz xüsusi bir şəraitdəyik, ikiqat diqqətli olmalıyıq. Təhsil müəssisələrində tətil elan olunması səbəbini də məhz bununla əlaqələndirmək istərdim".

E.Əmrullayev Təhsil Nazirliyi tərəfindən gündəlik əsasda həm məktəblərdə yoluxan şagirdlər, həm müəllimlər, həm digər məsələlərlə bağlı ictimaiyyətə geniş məlumatlar verildiyini qeyd edib. "Bu rəqəmlər öz-özlüyündə bizə imkan verirdi ki, hər an məsələni diqqətdə saxlayaq. Əgər sentyabrın 15-dən oktyabrın 5 -nə qədər bizdə cəmi 2 məktəbdə qapanma olmuşdusa, son günlər ərzində biz artıq hər gün 10-15 məktəbi bağlamaq məcburiyyətindəyik. Çünki məktəbdə, xüsusən müəllimlər arasında bir yoluxma olurdusa, həmin məktəbi bağlamaq məcburiyyətindəyik, şagirdlər arasında olanda isə sinifləri bağlayırıq. Yoluxma hallarının gün ərzində 500-ü keçməsi gün ərzində bir neçə təhsil müəssisəsinin bağlanmasına gətirib çıxarda bilərdi. İnanıram ki, 2 həftə ərzində biz davranışımızla və dəyişikliklərlə bu tətbiq edilmiş məhdudiyyətlər nəticəsində yoluxma istiqamətində müəyyən dinamikanı, yoluxma zəncirini qıra biləcəyik. Həmçinin, Təhsil Nazirliyi olaraq ictimaiyyətlə və digər təhsil iştirakçıları ilə birlikdə yaranmış situasiyada ən düzgün, uyğun olan seçimləri etməklə noyabrın 2-dən başlayaraq bu və ya digər formada təhsili davam etdirəcəyik".

### Məktəblərdə karantin deyil, tətil elan edilib

KİV əməkdaşlarının çoxsaylı suallarını cavablandıran Təhsil naziri bir daha qeyd edib ki, tətbiq olunan qərarla məktəblərdə karantin deyil, tətil elan edilib. Bu, o deməkdir ki, ümumtəhsil məktəblərinin şagirdləri üçün bu və digər qaydada dərs keçilmir. "Noyabrda bir həftə tətil var idi. Biz bu tətili digər tətil günləri ilə əvəzləşdirə biləcəyik. Bu gün elan edilən tətildə tədris müddəti qısaldılmır - bu tətil tədris ilinin azalmasına və şagirdlərin daha az müddətdə təhsil almasına səbəb olmayacaq. Şagirdlər bu gün olmayan təhsili qarşıdakı vaxtda alacaqlar".

Bildirilib ki, Nazirlər Kabinetinin bu qərarı yalnız təhsil müəssisələrinə aiddir. Repetitor və təhsillə məşğul olan digər qurumlara aid edilmir.

### 15 mindən çox tələbəyə ödənişlər edilib

Təhsil naziri könüllü olaraq cəbhəyə yola düşən tələbələrin təhsillərini davam etdirməsi və həssas əhali qrupuna aid olan tələbələrin təhsil haqlarının ödənilməsi ilə bağlı sualları da cavablandırıb. Qeyd olunub ki, orduya könüllü gedən tələbələr təhsillərini davam etdirə biləcəklər. Bununla bağlı müəyyən prosedurlar var. "Yeganə istəyimiz, həmin əsgərlərimizin zəfərlə geri qayıtmasıdır".

Tələbələrin təhsil haqları ilə bağlı məsələyə gəlincə, E.Əmrullayev qeyd edib ki, ölkə rəhbərliyinin müvafiq sərəncamı ilə ötən semestrdən müəyyən sosial həssas qrupdan olan tələbələrə bu baxımdan köməklik göstərilir. Həm ali təhsil, həm peşə təhsili, həm orta ixtisas təhsili müəssisələrinin tələbələrinə Azərbaycan hökuməti tərəfindən ödənişlər edilib. "Bildiyiniz kimi, sosial həssas qrupdan olan tələbələrin təhsil haqqının ödənilməsi ilə bağlı qərar var. Keçən semestr 15 mindən çox tələbəyə ödənişlər edilib. Oktyabrın sonu, noyabrın əvvəli 12 min tələbə üçün yenidən təhsil haqqı ödənişi ediləcək. Bu il birinci kursa qəbul olan tələbələrə də müraciətlər əsasında müvafiq qaydada ödəniş edilməsi nəzərdə tutulub. Bu qayda ilə bu semestr 15 mindən çox tələbənin maliyyələşdirilməsini nəzərdə tuturuq",-deyə nazir bildirib.

### Yoluxanlardan təkcə 25 faizi məktəbə gedən şagirdlərdir

Brifinqdə bildirilib ki, TƏBİB -lə əlaqədar olaraq müəyyən edilmiş alqoritmikaya əsasən, oktyabrın 15-nə qədər respublika üzrə 546 şagird koronavirusa yoluxub. İşçi heyətdən isə 186 nəfərdə yoluxma qeydə alınıb. Şagirdlərdən yalnız 25 faizinin məktəblərdə yoluxduğu müəyyən edilib. Yoluxma halı qeydə alınan siniflər isə distant təhsilə keçirilib.Yoluxmaya Sumqayıt, Abşeronda yerləşən məktəblər daha riskli görünür. Bir sinifdə 4-5 şagirdin virusa yoluxması halı olmayıb. Müəllimlər arasında yoluxmanın çoxalması isə yaş və pandemiyanın öz xüsusiyyətləri ilə bağlıdır. Valideynlər məktəblərə nəqliyyatdan istifadə etməklə gəlir və onlar da müəllimi yoluxdura bilərlər.

Virusun yayılması ilə bağlanan məktəblərin çoğrafiyasına gəldikdə, Təhsil naziri qeyd edib ki, ilk bağlanan məktəb Qubadakı Qanqam kənd məktəbi olub. "Ancaq Bakı və Sumqayıt şəhərlərinin əhalisi çox olduğu üçün burada yerləşən məktəblər daha risklidir. Harada olmağımızdan asılı olmayaraq həkimlərimizə, ordumuza dəstək olmağa çalışmalıyıq".

### Distant təhsil və monitorinqlər

Distant təhsil almaq imkanları məhdud olan təhsilalanlarla bağlı məsələlərin tənzimlənməsinə gəlincə, E.Əmrullayev bildirib ki, Təhsil Nazirliyi artıq mart ayından bu günə kimi indiki mürəkkəb situasiya ilə üzüzədir. "Təbii ki, zərurətdən irəli gələrək irəliyə doğru bir çox addımlar atılır: bir milyona yaxın şagirdin onlayn sistemə qoşulması, 100 mindən artıq uşağın qeydiyyatdan keçməsi baş verib. Həm müəllimlər, həm də şagirdlər qeydiyyatdan keçibsə, biz onların tədris prosesini, eləcə də şagirdlərin sistemə daxil ola və ya ola bilmədiklərini də platforma üzərindən izləyə bilirik".

Təhsil naziri qeyd edib ki, ikinci əldə olunan nailiyyət, fərqli tədris planlarının sınaqdan keçməsi ilə bağlıdır. "Biz həftədə 2 dəfə, 3 dəfə əyani təhsil, yəni hibrid formasında olan tədrisi uğurla tətbiq edə bildik. Bizim tərəfimizdən olan müşahidələrə əsasən, ümumiyyətlə, həftədə 15 saat əyani dərsin teledərslərlə birgə hibrid formada tətbiqi öyrənmə prosesində qənaətbəxş nəticələr əldə etməyə qismən də olsa kömək edir".

E.Əmrullayev distant təhsilin digər problemlərinə gəlincə qeyd edib ki, təbii ki, bir çox bölgələrimizdə həm internetlə, həm də şagirdlərdə olan cihazlarla bağlı problemlər var. Məsələn, bu səbəbdən də oktyabrın 1-dən biz həmin bölgələrdə həftədə 5 dəfə, kiçik yerlərdə, hardakı problemlər az yaşanır, əyani təhsilə yaxın bir formatda tədrisə keçdik. Bu, say etibarı ilə bizim kontekstdə 2 minə yaxın məktəb demək idi".

Emin Əmrullayev vurğulayıb ki, nazirlik tərəfindən aparılan araşdırmaların digər bir istiqaməti 27 sentyabrdan sonra yaranmış məhdudiyyətlərdə hansı platformaların işləməsi ilə bağlıdır. "Biz ən uyğun platformaların müəyyənləşdirilməsi istiqamətində iş görmüşük. O cümlədən də ölkədə internet təminatını həyata keçirən aidiyyəti qurumlarla sıx əməkdaşlığımız var ki, heç olmasa məktəblərdə istifadə olunan istifadəçi adları ilə bu sistemlər işləsin. Biz bir sıra ali təhsil müəssisələrimizdə istifadə olunan platformaların açılmasına nail olmuşuq. Artıq ötən həftə platformaların bəziləri fəaliyyətə başlayıb. Növbəti həftədə mövcud olan müsbət təcrübənin sistemləşdirilməsi və sistemli şəkildə noyabr ayının əvvəlindən tətbiq edilməsini planlaşdırırıq".

### Məktəb infrastrukturunun yaxşılaşdırılması istiqamətində böyük işlər görülüb

Azərbaycanın işğaldan azad olunan ərazilərində görüləcək işlər və yeni infrastrukturların yaradılması ilə bağlı təşəbbüslər çərçivəsində azad olunan torpaqlarda yeni məktəblərin inşası məsələsinə Təhsil naziri Emin Əmrullayevin münasibəti belə olub: "Bu, bizim ən böyük arzumuzdur. Azərbaycanın hər bir kəndində təhsil var. Biz çox inamlıyıq ki, Azərbaycana məxsus torpaqlarda, işğaldan azad olunmuş torpaqlarda həm infrastrukturun qurulması, həm də təhsilin keyfiyyəti baxımından böyük uğurlar əldə edə bilərik. Orada hər şey yenidən başlayır. Ərazilərin işğaldan azad olunması Azərbaycanın təhsil sistemi üçün də yeni imkanlar açır".

Təhsil naziri əlavə edib ki, son illər Azərbaycanda məktəb infrastrukturunun yaxşılaşdırılması istiqamətində böyük işlər görülüb. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin müvafiq sərəncam və tapşırıqları ilə 3500-dən çox məktəb ya təmir olunub və ya yenidən tikilib. Bu işin davamlı olacağına biz hamımız əminik. Bu sahədə Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyevanın rəhbərliyi ilə Heydər Əliyev Fondu tərəfindən görülən işlər də davamlı xarakter daşıyır. Bu mənada, cənab Prezident son müsahibələrində işğaldan azad olunan ərazilərimizin həm infrastruktur baxımından, həm insanların rifah halının ən yüksək standartlar əsasında qurulması ilə bağlı çıxışlar edib.

"Mənə elə gəlir ki, bu torpaqlar azad olunan gündən həmin ərazilərdə həm sosial, həm iqtisadi, həm başqa parametrlər üzrə Azərbaycan vətəndaşları üçün ən yüksək rifah standartları təmin ediləcək. Təbii ki, biz də bunun bir hissəsi olmaqdan qürur duyuruq. Sonda əminliyimizi və inamımızı sizinlə paylaşmaq istərdik ki, çox qısa zamanda Azərbaycan ordusu işğal altında olan hər bir qarış torpağımızı azad edəcək. Qələbə Azərbaycanındır!".



# Başdan-başa BAYRAĞA bürünən AZƏRBAYCAN!

## İgid oğullarımız işğaldan azad olunan Vətən torpağını BAYRAĞIMIZLA fəth edir



**Samirə KƏRİMOVA**

*Üçrəngli bayrağın kölgəsində mən*
*Qaraca torpağı vətən görmüşəm.*
*Zəfər güllərini dövri-qədimdən*
*Bayraq işığında bitən görmüşəm.*
*Bayraq mənliyimdir, bayraq kimliyim,*
*Bayraq-öz yurduma öz hakimliyim.*

Bu misralar hamıya yaxşı tanışdır. Azərbaycanın görkəmli şairi Bəxtiyar Vahabzadənin sanki insanın qəlbindəki fikirlərini oxuyurmuş kimi sətirlərə köçürdüyü məşhur “Bayraq “ şeiri...

Harada olmağımızdan asılı olmayaraq bayrağımızı görəndə iftixar hiss keçiririk. Xüsusilə son günlər cəbhədən gələn xoş xəbərlər hər birimizdə üçrəngli BAYRAĞIMIZA nə qədər bağlı olduğumuzu göstərir. Bəli, bu gün bizlərdə bir BAYRAQ sevgisi yaşanır...

Bayraq ucalıqdır, milli heysiyyətdir, vətəndaşlıq qürurudur. Bayraq millət, dövlət, milli mənlik deməkdir. BAYRAQ bizlər üçün torpaq qədər müqəddəsdir. Və müzəffər ordumuz ard-ardına işğal olunan torpaqlarımızı azad etdikcə məhz BAYRAĞIMIZ həmin yerlərdə sancılmaqla xoş xəbərlər, qələbə müjdəçisinə çevrilir.

Bizim üçün BAYRAQ - AZƏRBAYCANIN müstəqilliyi, ərazi bütövlüyü deməkdir. Bayrağımız dalğalandığı hər bir ölkədə siyasi qələbəmizin təntənəsi kimi bizlərə qürur verir, bütün dünya azərbaycanlılarının həmrəylik, birlik rəmzi kimi yüksəlir.

Ümummilli lider Heydər Əliyev deyirdi: “Mən çox ölkələrə gedirəm. Hava limanında Azərbaycan bayrağını görəndə həddindən artıq sevinirəm. Yaşadığım iqamətgahın, əyləşdiyim avtomobilin üstündə Azərbaycan bayrağını, hansı bir yerə danışığa gedəndə Azərbaycan bayrağını görürəm. Bu, bizim müstəqil dövlətimizin rəmzidir. Ona görə də hər bir Azərbaycan vətəndaşı, xüsusən gənc nəsil bunu dərk etsin, qiymətləndirsin. Onda bayrağa olan məhəbbət, eyni zamanda, vətənə, xalqa, dövlətə olan məhəbbət bərabər olsun”.

Ruhunuz şad olsun, dahi şəxsiyyət... Sizin arzularınız, gənc nəsildə görmək istədikləriniz uğurla reallaşmaqdadır. Ölkənin təhsil sahəsində dövlət siyasətini həyata keçirən Təhsil Nazirliyi son günlərdə atdığı təqdirəlayiq addımı ilə ictimaiyyət tərəfindən maraq, eyni zamanda rəğbətlə qarşılanıb. Belə ki, nazirliyin binası AZƏRBAYCAN BAYRAĞINA bürünüb. Təhsilin ən müxtəlif pillələrində təhsil alan, həmçinin təhsilverənlərin isə sinələrini, habelə sinifləri və auditoriyaları, iş masalarını üçrəngli BAYRAĞIMIZ bəzəyir. Bu gün paytaxt Bakımızın küçələrində, yaşadığımız evlərdə, bir sözlə, addım atdığımız hər yerdə BAYRAĞIMIZLA rastlaşırıq. Bütövlükdə AZƏRBAYCAN başdan-başa BAYRAĞA bürünüb. Nə gözəldir bunu görmək və seyr etmək...

Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev 2010-cu il sentyabrın 1-də Bakıda Dövlət Bayrağı Meydanının təntənəli açılış mərasimində üçrəngli bayrağımızın müstəqil Azərbaycanın simvolu, xalqımızın qürur mənbəyi olduğunu bildirərək belə söyləmişdir: “Bu meydan nadir memarlıq abidəsidir. Bu bayraq bizim milli dəyərimizdir. Bayraq Meydanının yaradılması Azərbaycanın gücünü, Azərbaycan xalqının öz dövlətinə sevgisini, dövlət rəmzlərimizə ehtiramımızı göstərir.

...Bizim bayrağımız qürur mənbəyimizdir. Bizim bayrağımız canımızdır, ürəyimizdir. Bu gün Azərbaycanın hər bir yerində dövlət bayrağı dalğalanır. Azərbaycan ərazi bütövlüyünü bərpa edəndən sonra milli dövlət bayrağımız bu gün hələ də işğal altında olan torpaqlarda da qaldırılacaqdır. Bizim bayrağımız Dağlıq Qarabağda, Xankəndidə, Şuşada dalğalanacaqdır”.

Nə xoş bizə ki, dövlət başçısı İlham Əliyevin o zaman, eləcə də hər dəfə istər dünyada beynəlxalq səviyyədə keçirilən mötəbər, istərsə də ölkəmizdə təşkil olunan müxtəlif səpgili çoxlu sayda görüşlərdəki, tədbirlərdəki çıxışlarının ana xəttini təşkil edən həmin fikirlərin hazırda həyata keçdiyinin canlı şahidləriyik. Bir aya yaxındır ki, Azərbaycan öz ərazi bütövlüyünün bərpası uğrunda mübarizə aparır. Döyüş meydanında əsgər və zabitlərimiz qəhrəmanlıq göstərir, rəşadətli ordumuz düşmənə sarsıdıcı zərbələr endirir, onları yerinə oturdur, düşməni canı-qanı bahasına torpaqlarımızdan qovur.

Əbədiyaşar liderimiz Heydər Əliyevin qurucusu olduğu Azərbaycan Ordusu bu günlərdə ölkə Prezideni, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə yeni tarix yazır. Torpaqlarımızı düşmən işğalından azad etmək üçün böyük fədakarlıq göstərən Azərbaycan əsgərinin qəhrəmanlığı və hünəri bizlərdə sonsuz qürur hissi yaradır.

Artıq neçə gündür Ali Baş Komandan İlham Əliyev erməni cəlladlarından azad edilən kənd və rayonlarımız haqqında verdiyi müjdəli xəbərləri ilə biz ölkə vətəndaşlarını da yazılmaqda olan yeni tarixin bir parçasına çevirməkdədir. Cəbhədən gələn bu xoş xəbərlərin simvoluna çevrilən üçrəngli BAYRAĞIMIZ... İgid oğullarımız işğaldan azad olunan Vətən torpağını BAYRAĞIMIZLA fəth edir.

Ön cəbhədə vuruşan ordumuzun qüdrətindən ilham alan insanlar artıq bir-birinə qalibiyyət rəmzimiz olan BAYRAQ verirlər. Bu gün əlamətdar günlərimizdə aldığımız ən dəyərli hədiyyə də məhz üçrəngli BAYRAĞIMIZDIR. Onu qürurla gəzdirməklə, sanki həmin döyüşlərdə biz də iştirak edirmiş kimi özümüzü təsəvvür edirik. O, duyğularla yaşamaq isə sözlə ifadə olunası deyil...

Bəli, bu gün işğal altında olan torpaqlarımız azad olunur, həmin ərazilərdə, eləcə də bir sıra strateji yüksəkliklərdə AZƏRBAYCAN BAYRAĞI dalğalanır. Hər bir Azərbaycan vətəndaşının 30 ilə yaxındır ki, ürəyində gəzdirdiyi ən böyük arzusunu Ali Baş Komandanın rəhbərliyi altında QƏHRƏMAN, ŞANLI ORDUMUZ həyata keçirir.

Düz bir il bundan əvvəl Ermənistanın baş naziri işğal edilmiş torpaqlarda - Xankəndidə demişdi ki, Qarabağ Ermənistandır və nöqtə. Ona cavab olaraq ən mükəmməl sözləri isə məhz Azərbaycan Respublikasının Silahlı Qüvvələrinin Ali Baş Komandanı, Prezident İlham Əliyev bildirdi: “Qarabağ Azərbaycandır və nida işarəsi.

...Biz haqq-ədalət tərəfindəyik. Biz tarixin ən şərəfli anlarını yaşayırıq. Azərbaycan xalqı qədim xalqdır. Bizim tariximizdə bir çox şərəfli anlar olub, hadisələr olub, qələbələr olub. Onların sırasında bugünkü hadisələr xüsusi yerdədir. Biz ədaləti bərpa edirik, ərazi bütövlüyümüzü bərpa edirik, Azərbaycan xalqının ümidlərini doğrulduruq və bundan sonra da doğruldacağıq.

...Azərbaycan Ordusu zəfər marşındadır və qarşımızda duran bütün vəzifələr yerinə yetirilir”.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev xalqımıza hər dəfə azad olunmuş torpaqlarımızla bağlı söylədiyi xoş xəbərlərlə, qarşı tərəfə verdiyi sərt mesajları ilə bir daha sübut edir və göstərir ki, biz haqlıyıq, biz zəfər çalacağıq! Qarabağ bizimdir, Qarabağ Azərbaycandır!

Nöqtəni nida edən ALİ BAŞ Komandan. Sizinlə qürür duyuruq!

Dünyanın ən gözəl BAYRAĞI, sənə ancaq QƏLƏBƏ yaraşır...

**Son günlər Azərbaycan ordusunun göstərdiyi şücaət düşmənə tarixin acı silləsi oldu. Azərbaycan əsgəri düşmənə öz yerini göstərdi! Şanlı ordumuz irəlilədikcə Vətənimizin ərazi bütövlüyü bərpa olunmağa başlayır. Müzəffər ordumuzun gücü qarşısında düşmən tab gətirə bilmir. 27 ildən sonra torpaqlarımız düşmən tapdağından azad olunur. Oktyabrın əvvəllərindən başlayaraq hər gün cəbhədən sevindirici xəbərlər almağa davam edirik. Yaşayış məntəqələrimiz, kəndlərimiz, şəhərlərimiz işğaldan azad olunur. Oktyabrın 17-də Azərbaycan ordusu Füzuli rayonunu işğaldan azad etdi. Həmin gün Füzuli sakinləri ilə yanaşı Azərbaycan xalqının ən sevincli və xoşbəxt günlərindən biri kimi tarixin yaddaşına yazıldı. Bəli, bu zəfər bayramını Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin başçılığı ilə müzəffər ordumuz bizlərə yaşatdı.**




# Vətən bizi gözləyir...

**Rəşad ZİYADOV**

### "Kəndimizin alınma xəbərini eşidəndə sevinc göz yaşlarıma hakim ola bilmədim"

Füzuli sakinlərinin 27 illik Vətən həsrəti sona çatdı. Füzuli torpağının hər daşını, qayasını dünyanın bütün gözəl yerlərindən üstün hesab edən Füzuli rayon Aşağı Əbdürrəhmanlı kənd sakini Əbdül Cəfərov müzəffər ordumuzun zəfər bayramı və Füzulinin işğalçılardan alınması münasibəti ilə xalqımıza təbriklərini ifadə edərək sevincini bizimlə bölüşdü: "İşğaldan əvvəl 9 il Aşağı Əbdürrəhmanlı kəndində kimya müəllimi işləmişəm. Hazırda Füzuli rayon 32 nömrəli tam orta məktəbin direktoru vəzifəsində çalışıram. Sevincimin hədd-hüdudu yoxdur. Axır ki, 27 illik həsrət sona çatdı. Allah məni arzuma və istəyimə qovuşdurdu. Mənim uşaqlığım, gəncliyim, müəllim kimi fəaliyyətim Füzuli rayonu Aşağı Əbürrəhmanlı kəndi ilə bağlıdır. 27 ildir ki, o kəndə qayıtmaq, ata-babalarımızın uyuduğu müqəddəs torpaqları yad etmək, kəndimizin saf suyunu içmək, təmiz havasını udmaq arzusu ilə yaşamışam. Kəndimizin alınma xəbərini eşidəndə keçirdiyim sevinc hisslərini izah etməkdə çətinlik çəkirəm. Çox çalışdım özümü saxlayım, lakin sevinc göz yaşlarıma hakim ola bilmədim. Sevindim ki, Qarabağın qapısı sayılan Füzuli rayonu artıq müzəffər ordumuzun əlindədir. Füzulidən həm Xankəndinə, həm Ağdama, eyni zamanda Şuşaya yollar açılır. Bu gün Azərbaycan xalqı bir yumruq kimi Azərbaycan Prezidentinin ətrafında birləşib. Hər bir vətəndaş torpağımızın azad olması üçün öz töhfəsini verməyə çalışır. Belə bir xalqı məğlub etmək olmaz. İnanırıq ki, işğal olan torpaqlarımız Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi altında düşmən tapdağından tam azad olacaq, şəhərlərimiz, kəndlərimiz bərpa olacaq və biz köçkünlər öz doğma yurd-yuvalarımıza qayıdacağıq. Azad olmuş torpaqlar bizi gözləyir. Tanrı ordumuzu qorusun".

### "Bütün xalqımız kimi mən də çox qürurluyam"

Füzuli rayonu 33 nömrəli tam orta məktəbin direktoru, əməkdar müəllim Ülkər Hüseynova 1977-ci ildə Azərbaycan Pedaqoji İnstitutunun Azərbaycan dili və ədəbiyyat fakültəsini fərqlənmə diplomu ilə bitirərək doğma yurdunda - Füzuli rayonunun Yuxarı Seyidəhmədli kənd tam orta məktəbində müəllim işləməyə başlayır. Füzulinin işğal olunması həmyerliləri kimi onu da Vətən həsrəti ilə yaşamağa məcbur edir: "Qürbət cənnət olsa da, mənim şahım vətəndir, Azərbaycandır. Mən özümü onda tapmışam. Mən onun torpağından yaranmışam, onun torpağına da qarışacağam. Onsuz mənə həyat, dirilik yoxdur. Bütün soydaşlarım kimi mən də erməni işğalçılarının təcavüzkarlığının şahidi olmuş, uşaqlığımı, gəncliyimi yaşadığım doğma yurdumdan 4 körpə övladımla didərgin düşmüşəm. Bu il xalqımızın tarixində ən şərəfli dövrü yaşayırıq. 27 ildən artıq şəhid qanları ilə suvarılmış torpaqlarımız qüdrətli ordumuz və hərtərəfli, uzaqgörən siyasəti ilə xalqımızın sonsuz məhəbbətini qazanmış Ali Baş Komandanımızın şücaəti ilə işğaldan azad olunur. Şəhidlərimizin və vətən həsrəti ilə dünyasını dəyişənlərimizin ruhu şad olsun! Bütün xalqımız kimi, mən də çox qürurluyam, xalqımızla, dövlətimizlə, Prezidentimizlə fəxr edirəm. Hər bir əsgərimizə, zabitimizə və bu qələbəni xalqımıza yaşadan Prezidentimizə sonsuz sevgi və minnətdarlığımı bildirirəm. Uca Tanrı Sizi qorusun!"

*Aydın Aydınov,*
*X sinif şagirdi*

**"Füzulidə məzun olmaq və işğaldan azad olunan Vətən torpağında ilk zəngi çalmaq arzusundayam"**

### "Ən böyük arzum Polad kimi, Mübariz kimi Vətənimə xidmət etməkdir"

Füzuli rayon 48 nömrəli tam orta məktəbin şagirdləri də Füzulinin işğaldan azad olunmasına çox sevinirlər.

XI sinif şagirdi Elşən Hüseynzadənin arzusu valideynlərinin baya-başa çatdıqları Füzulidə təhsilini davam etdirmək, ali təhsilini başa vurduqdan sonra doğma Vətəni üçün çalışmaqdır. "Qarabağ bizimdir, Qarabağ Azərbaycandır" cümlələri ilə hisslərimi sizə çatdırmaq istəyirəm. Bu gün 27 illik həsrətimizə son qoyuldu. Başda Ali Baş Komandanımız İlham Əliyev olmaqla, igid əsgərlərimiz torpaqlarımızı işğaldan azad edir. Təhsil aldığım 48 nömrəli tam orta məktəbin müəllimləri hər il bizləri cəbhədə xidmət edən əsgərlərimizlə görüşə aparırdı. Tez-tez onlara məktub yazırdıq, əsgərlərimizə güvəndiyimizi bildirirdik. Onlar isə cavabında "bizə güvənin, torpaqlarımızı erməni işğalçılarından azad edəcəyik" deyirdilər. Bəli, bu gün igid əsgərlərimiz verdiyi sözün üstündə durdular. Bir neçə şəhər və çoxlu sayda kəndlərimiz işğaldan azad olundu. Prezidentimizlə qürur duyuruq. Prezidentimiz İlham Əliyev yeni tarix yazdı, 27 illik işğalda olan torpaqlarımızı azad etmək üçün böyük qətiyyət göstərərək prinsipial və ədalətli mövqeyini bütün dünyaya göstərdi. Ən böyük arzum Polad kimi, Mübariz kimi güclü hərbiçi olmaq və Vətənimə xidmət etməkdir. Azərbaycanın hər bir qarış torpağı, daşı mənim üçün çox dəyərlidir. Vətənimi çox sevirəm. Cəbhədən, döyüş meydanından gələn xoş xəbərlər bizi sevindirir. Rəşadətli güclü ordumuzun qəhrəmanlığı biz gənclər üçün bir örnəkdir".

### "Qarabağda turizmin inkişafında gözəl işlər görəcəyəm"

Füzuli rayon 48 nömrəli tam orta məktəbin X sinif şagirdi Aydın Aydınov bildirir ki, bu gün hamımızın ürəyi işğal olunmuş torpaqlarımız uğrunda döyüşən oğullarımızla döyünür. Hər birimiz cəbhədən gələcək xoş müjdələrin sorağındayıq. "Mənim 15 yaşım var. Qarabağ haqqında çox eşidib, oxumuşam. O, yerlərə getmək xəyal idi mənim üçün. Artıq xəyallar gerçək oldu. Mən öz doğma rayonum Füzulidə məzun olmaq və işğaldan azad olunan Vətən torpağında ilk zəngi çalmaq arzusundayam. Orada yaşamaq istəyirəm. Sevincimin hədd-hüdudu yoxdur. Yaxşı oxuyuram, arzum turizm sahəsidir. Təhsilimi bu sahə üzrə davam etdirəcəyəm. Qarabağda turizmin inkişafında gözəl işlər görəcəyəm. Bizə bu sevinci yaşadan Prezident, Ali Baş Komandan İlham Əliyev cənablarına və Rəşadətli Ordumuza təşəkkür edirəm. Bizim hər birimizin ən böyük arzusu qələbədir, işğal olunmuş torpaqlarımızın, doğma Qarabağımızın geri qaytarılması, azad olunmasıdır. Yaxın günlərdə qeyrətinə arxalandığımız, ümidimizi bağladığımız igid oğullarımız bizə böyük qələbə hissini yaşadacaq. Qarabağ həsrətinə son qoyulacaqdır. Bəli, doğma yurd həsrəti artıq sona çatır. Xalqımız darıxdığı kəndlərinə, ev-eşiklərinə, ordakı uşaqlıq, gənclik xatirələrinə tezliklə qovuşacaq. Onları qovuşduran da cəsur Azərbaycan əsgəridir!

### "Füzulini görməmişəm, ancaq qanadım olsaydı ora uçardım"

Həmin məktəbin IX sinif şagirdi Hacı Hacıyev. "Anam və atam Füzuli rayonunda doğulublar. Nənəm və babam doğma yurdlarının bərəkətli torpağı, saf suyu, təmiz havası, mehriban və zəhmətkeş camaatından çox danışıb. Demək olar ki, valideynlərimin vətən haqqında danışdıqları nağıllarla böyümüşəm. Prezidentimiz "Füzuli şəhəri düşməndən azad edildi" xəbərini verəndə evdə hamı sevincdən ağladı. Çox qəribə hiss idi... Ana vətənimi, Füzulini görməmişəm, ancaq qanadım olsaydı ora uçardım deyə fikirləşdim. Həmişə babam, nənəm deyirdi: "Vətən dünyada olan heç bir varlıqla əvəz edilməz! Maldan-mülkdən, candan keçilər, amma Vətəndən keçilməz! Torpaq adamı çəkir". Hər gün televizor qarşısında oturub Prezidentimizin, dahi sərkərdəmizin dilindən hansısa bir bölgəmizin alınma xəbərini gözləyirəm. Torpaqlarımızın alınması kimi gözəl xəbərləri Prezidentimizin dilindən eşitmək çox xoşuma gəlir. Ali Baş Komandanımızın qələbə xəbərlər deyən siması yaddaşımda və qəlbimdə əbədi həkk olundu. İnşallah, ümid edirəm ki, Rəşadətli Ordumuz bizim vətənimizə, ata-baba yurdumuza, Qarabağımıza qayıtmağımız üçün bütün bağlı yolları açacaq. Qaçqın və köçkün kimi sözlər üstümüzdən götürüləcək, o gözəl torpaqlarımıza qayıdacayıq.

Mən Prezidentimizlə, rəşadətli ordumuzla fəxr edirəm! Fəxr edirəm ki, dünya şöhrətli siyasətçi İlham Əliyev kimi Prezidenti olan Azərbaycan vətəndaşıyam! Mən vətənimi sevirəm!

# Erməni hücumu nəticəsində dağılan daha bir məktəb



Ermənistan Silahlı Qüvvələrinin oktyabrın 17-si gecə saat 01:00 radələrində Gəncəyə yenidən raket hücumu nəticəsində böyük dağıntı və insan tələfatı qeydə alınıb.

Hücum nəticəsində Gəncə şəhəri K.D.Uşinski adına 29 nömrəli tam orta məktəb də ciddi dağıntılara məruz qalıb. Hadisə gecə saatlarında baş verdiyindən məktəbdə xəsarət alan olmayıb.

Qeyd edək ki, 3 mərtəbəli əsas bina və 2 əlavə korpusdan ibarət məktəbdə 1006 şagird təhsil alır.

# İşğal altında olan peşə təhsili müəssisələri




Ermənilər tərəfindən həyata keçirilən separatist fəaliyyət nəticəsində Dağlıq Qarabağ və işğal altında olan ətraf rayonlarda yerləşən 6 peşə təhsili müəssisəsinin fəaliyyəti tamamilə dayandırılıb, 5 peşə təhsili müəssisəsi isə müvəqqəti olaraq digər bölgələrə köçürülüb. Müvəqqəti olaraq digər bölgələrə köçürülən peşə təhsili müəssisələri arasında Kəlbəcər Peşə Məktəbi, Laçın Peşə Məktəbi, Cəbrayıl Peşə Məktəbi və Füzuli Dövlət Peşə Təhsil Mərkəzi yer almaqdadır. Qubadlı Peşə Məktəbi, Zəngilan Peşə Məktəbi, Şuşa Peşə Məktəbi, 1, 3 və 5 nömrəli Ağdam Peşə məktəblərinin fəaliyyəti isə dayandırılıb.

Qeyd edək ki, işğaldan əvvəl Cəbrayıl şəhərində Cəbrayıl Peşə Məktəbi fəaliyyət göstərib, sözügedən şəhər 4 oktyabr 2020-ci il tarixindən etibarən Ordumuz tərəfindən azad edilib.

# Erməniliyin yalan dozu

## Ermənistanın Təhsil Nazirliyinə istinadən yayılan xəbər sadəcə primitiv quraşdırılmış feyk xəbərdir

**Cəsarət VALEHOV**

Oktyabrın 19-da səhər saat 09.42-də Ermənistanın Təhsil, Elm, Mədəniyyət və İdman Nazirliyinə istinadən bu ölkənin news.am *(https://news.am/eng/news/608675.html)* xəbər saytında məlumat yayılıb ki, Ermənistanın Geğarkunik vilayətinin Sotk və Kut kəndlərinin orta məktəbləri Azərbaycanın pilotsuz təyyarələrinin zərbələri nəticəsində dağıntılara məruz qalıb. Xəbərdə oxucunun diqqəti dərhal fotolara yönəlir.

İndi isə gəlin erməni xəbər saytında *https://news.am/eng/news/608675.html* qoyulan fotolara baxaq. Bu fotolar qırılmış pəncərə şüşələrinə (özü də dron zərbəsi ilə) fokus olunur.

Sirr deyil ki, dron zərbəsinə məruz qalan məktəb binasının fotosu bu cür olmur. Burada çox aydınca bəlli olur ki, kimsə pəncərə şüşəsini ehmalıca məktəbin divarına söykəyərək bundan feyk fotoşou düzəltmək istəyib *(foto 1)*. Eləcə də məktəbin yuxarı qatındakı pəncərəyə baxaq *(foto 2)*. Burada pəncərənin bir hissəsi qırılmış görünsə də, aşağıdakı və ətrafdakı pəncərələr sağlamdır. Deməli, Ermənistanın Təhsil Nazirliyinə istinadən yayılan xəbər sadəcə primitiv quraşdırılmış feyk xəbərdir.

İndi gələk 17 oktyabrda Gəncəyə atılan raket zərbəsi nəticəsində dağıntıya məruz qalan, məşhur rus pedaqoqu Konstantin Uşinskinin adını daşıyan 29 nömrəli şəhər tam orta məktəbin zərbədən sonrakı fotolarına *(foto 3-4)*.

Burada fotolar çərçivədən çıxan pəncərə və qapıları, qırılmış və yerlə bir olmuş əşyaları, şuşə qırıqlarını və ən faciəvisi bu məktəbin 3 şagirdinin - Nigar, Orxan və Məryəmin dağıntılar altında qalmış cəsədlərini əks etdirir. Sadəcə fotoobyektivin təqdim etdiyi iki görüntü (feyk və həqiqi) faciənin təfsilatını tam aydın göstərir.

Erməni fotoyalanı son 30 ilin feyk xəbər tirajı kimi ilk baxışda ani effekt yaratsa da, diqqətli oxucu bununla erməninin yalan dozunu anındaca tuta bilər.

#StopArmenianAggression
#StopArmenianTerrorism
#PrayForGanja
#HumanRights
#WarCrimes


*Foto 1.*


*Foto 2.*


*Foto 3.*


*Foto 4.*

## Son döyüşə hazır ol



**Mahirə NAĞIQIZI,**

*Azərbaycan Dövlət Pedaqoji Universitetinin filologiya fakültəsinin dekanı, filologiya elmləri doktoru, professor*

Azərbaycan əsgəri, yolun Şuşaya gedər,
O yürüşün naminə son döyüşə hazır ol!
İntizarda Laçındı, Zəngilandı, Kəlbəcər,
Pir görüşün naminə, son döyüşə hazır ol!

Hədəfin düşmən olsun, o silahlı yalquzaq
Get, yolun açıq olsun, xata-baladan uzaq.
Adına layiq olan şeir, mahnılar yazaq,
Uca işin naminə, son döyüşə hazır ol!

Bəxtəvər o anadır, yurdu üçün ər verə
Oğul doğa böyüdə, vətənə əsgər verə.
Millətimin adına Tanrı bəxtəvər verə,
O alqışın naminə, son döyüşə hazır ol!

Artıq bizim səbrimiz doldu, komandan - dedin,
Baş komandan vur - dedi, oldu, komandan - dedin.
Siz göstərən yönüm - yön, yoldu komandan - dedin,
Dirənişin naminə, son döyüşə hazır ol!

Durdun, ayağa qalxdın, düşməni lal eylədin,
Əmdiyin ana südün, özünə halal eylədin.
Bayrağımın rəngini bir azda al eylədin,
Od-atəşin naminə, son döyüşə hazır ol!

Sən vətənin gücüsən, vətənin əsgər oğlu,
Vətən haya çağırmaz, haraylamaz hər oğlu.
Qızlar gül-çiçəyiylə süslər müzəffər oğlu,
O gəlişin naminə, son döyüşə hazır ol!

## Görünür

Cəbrayılda qaldırdığın bayrağın,
Əsgər, sənin, dörd bir yandan görünür.
Uzaq deyil can atdığın oylağın,
Beş addımda, Zəngilandan görünür.

Savalanda yatan igid oyandı,
Bayrağıdır, qan-qırmızı boyandı.
Yağı düşman qaçaraqda dayandı,
Əhvalından, qırımından görünür.

Nə möhtəşəm tarix yazdın dəftərə,
Oxunacaq, deyiləcək min kərə.
Adımızı ucaltmısan göylərə,
Bütün Qafqaz dağlarından görünür.

İçindəki duyğuların dil açdı,
Yetər! - dedin ki, millətim əl açdı.
Qədəm basdın, küll Qarabağ gül açdı,
Dağın-daşın novrağından görünür.

Hanı, gəlir-hanı, gəlir? - dedilər,
Xankəndinin Xanı gəlir - dedilər.
Adı gəlir, sanı gəlir - dedilər,
Çıxsan, Cıdır Meydanından görünür.

İlham yazdı yeni dövrü, zamanı,
Odur xalqın umud yeri, gümanı.
Bu Mullətin tarixinin hər anı,
Heydər baba dastanından görünür.

## Tarix yazan əsgər

*(Qazax sərhədçilərinə)*

Azərbaycan sərhədçisi, gözlə səddi,
Qoru onu gözün kimi, dayağı ol.
Vətəninin sərhədidi, əmanətdi,
Şərəfindi, ona oğul sayağı ol.

Düşmən qarı, qəlbi xəbis, amanı yox,
Gecə gələr, gündüz gələr- çıxmaz səsi.
Belə dayan: qəlbin isti, ağlın soyuq,
Onunladır qələbənin təntənəsi.

Burda sərhəd məftili də, dirəyi də,
Köklərindən qidalanan ruhun sənin.
O köklərin tarixini ürəyində,
Saxlamağın hədəfidir qələbənin.

Həmin tarix yazılıbdır xalqımızın,
Yaddaşında, indi gəlir bir an kimi.
O tarixin ocağında oda qızın,
Qoru yurdu Bəkil oğlu İmran kimi.

Bu gün sənsən, mənəm, odur - tarix yazan,
Bu da olsun o kitabdan bircə varaq.
Yazılanı bu dünyada olmaz pozan,
Qılınc kimi qından çıxar sıyrılaraq.

Azərbaycan sərhədçisi, gözlə səddi,
Qoru onu gözün kimi, dayağı ol.
Vətəninin sərhədidi, əmanətdi,
Şərəfindi, ona oğul sayağı ol.

## Cəbhəyə məktub

Cücərən dən kimi hava istədim,
Bir də istilik ver mənə bir azca.
Bəlkə dilək kimi onda göyərdim,
Bəlkə ümidlərim dindi bir azca.

Bir az da su hopsun köksümə bəsdir,
Təki hovur versin bir az sinəmə.
Səndən istədiyim bunca qədərdir,
Səndən gözlədiyim bu imiş, demə.

Ah, necə xoşbəxtik, çox görmə, barı,
Axşamım da dandı, sabahım da dan.
Bu payız vədəsi açdın yolları,
Qəlbimə su gəldi Suqovuşandan.

İllərdi içimdə yanan, qövr edən,
Hisslərim atlandı vahiməsində.

Yaşamaq eşqini bəxş elədin Sən,
Cəbrayıldan gələn azan səsində.

Hələ yollar durur Laçına qədər,
Səfərə çıxmağım ondan ötəri.
Hədəf qarşımdadır: Şuşa, Kəlbəcər,
Gücümə güc qatar mənim Həkəri.

Zəngilan, Qubadlı yolumuz üstə,
Dayanma, gecikmə bircə an, əsgər!
Ancaq zəfər söylə, qələbə istə,
Qələbə ver bizə, qəhrəman əsgər!

Cücərən dən kimi hava istədim,
Bir də istilik ver mənə bir azca.
Bəlkə dilək kimi onda göyərdim,
Bəlkə ümidlərim dindi bir azca.




## Qələbə sevinci



**Rafiq YUSİFOĞLU,**

*SDU-nun professoru, Əməkdar mədəniyyət işçisi*

Dindi alovlu mərmilər,
Bir möhtəşəm ocaq çatdım.
Lərzəyə gəldi dağ-dərə,
Aləmi bir yerə qatdım.
Dırmandım üzü yuxarı
Qədəm-qədəm, addım-addım.
Gözün aydın, Murov dağı,
Axır ki, zirvənə çatdım...

Sərilib dığa-mığalar
ordumuzun ayağına,
Yurdumuzun oğulları
dönüb elin dayağına,
Zirvələrdə dalğalanan
Azərbaycan bayrağına,
Düşmən baxır
yana-yana,
qorxa-qorxa,
maddım-maddım...

Qoyardımmı talasınlar
Vətənin bol sərvətini?
Zəfərlərin sevincini
qələbənin şərbətini,
Mən ləzzətlə
daddım, daddım,
Min ləzzətlə
daddım,dadım!
Şükürlər sənə İlahi,
Axır ki, murada yetdim,
Axır ki, arzuma çatdım...
Sönmüş ocağın yerində
Bir möhtəşəm tonqal çatdım!

## Tanrı qorusun türkü

Ulduzumuz, ayımız,
Göydə bir sayrışanda,
Qələbə sevincimiz
Kükrəyəndə, daşanda,
Dilində haqqın adı
Düşmənlə vuruşanda
Bilərmi soyuq, bürkü? -
Tanrı qorusun türkü!

Qəlbində iman nuru,
O, gələndə qaçar şər,-
Qədəm basdığı yerdə
Ab-hava, ruh dəyişər,
Namərdliklə işi yox,
Haqq uğrunda döyüşər,
O, bilməz qorxu-hürkü,-
Tanrı qorusun türkü!

Dosta qapısı açıq,
Düşməni it tək qovar,
Xalqına xor baxanın
Bəbəklərini ovar,
Din-iman sahibidi,
Göz üstündə yeri var,
Ona dostdusa hər kim,-
Tanrı qorusun türkü!

Bayrağımız yellənir
Uca Murov dağında,
Gözün aydın, ulu yurd,
Qələbəmiz yaxında!
İgid oğulların var,
Aslanlar qabağında
Neyləyər çaqqal, tülkü? -
Tanrı qorusun türkü!

Qardaşlıq göylərində
Yellənir qoşa bayraq,
Kim bizə bata bilər,
Yolumuz, yönümüz haqq?
Eyni ürək, eyni qan,
Eyni millət, eyni xalq,
Eyni dil, eyni türkü,-
Tanrı qorusun türkü!

## Azərbaycan dronu

Sanki simurq quşudur,
Azərbaycan dronu...
Qanadlanıb uçanda
Hünərin var vur onu!

O quş komandirlərin
Hər əmrini dinləyir...
Düşmənin tanklarını
Bircə-bircə dənləyir...

## Hiddət seli

Yurd sevgisindən coşan
Mərdlər haray qopardı.
Fırtına at oynatdı,
Sular coşdu, qabardı...
Düşməni çör-çöp kimi,
Hiddət seli apardı...

# Ermənilərin Gəncədə törətdiyi növbəti terror

Düşmənin silahlı qüvvələrinin oktyabrın 17-də gecə saat 01 radələrində Gəncənin mərkəzi hissəsində yerləşən dinc sakinlərin yaşayış məntəqələrini raket atəşinə tutması nəticəsində ilkin məlumata görə, 3 uşaq olmaqla 13 nəfər həlak olub, 52 nəfərədək şəxs yaralanıb, çoxsaylı mülki infrastruktur obyektlərinə, nəqliyyat vasitələrinə külli miqdarda ziyan dəyib.

Hazırda zərərçəkmiş şəxslərin siyahısının dəqiqləşdirilməsi ilə bağlı istintaq-əməliyyat tədbirləri həyata keçirilir.

Bu terror zamanı həlak olanlara Allahdan rəhmət, yaralılara isə şəfa diləyirik!




# Bir məktəbin 3 şagirdi terror qurbanı oldu

## Vətəndən pay olmayacağını bu dəfə daşlar altından çıxan məktəbli canlar hayqırdı

**Ruhiyyə DAŞSALAHLI**

Birdən-birə qopan gurultu, titrəyiş, toz-duman, vahimə, həyəcan, qışqırıq. Biri-birinə çox bənzəyən 2 gecə. Gecənin sükutunu pozan iki ballistik raket. Biri oktyabrın 11-ni, digəri oktyabrın 17-ni dəhşətə bürüdü özünün odu-alovuyla. Həmin raketlər gecəyə elə bir qaranlıq saldı ki, ondan bütün dünya danışdı. Faciənin miqyası gün ağaranda daha aydın göründü. Acı üstünə acı yaşadı Azərbaycanın qədim şəhəri Gəncə.


Nigar Əsgərova


Orxan Xəlilli


Məryəm Xəlilli

### Daş üstündə daş qalmadı

Qaranlıq qarışmağa başlayanda üst-üstə düzülən daşlar hər zərbəyə dayanıqlı binalar kimi görünürdü. Əzəmət nişanı o binalar gün ağaranda daş qalaqlarından başqa bir şey deyildi. Görünüşünə əzəmət, divarlarına istilik verən, soyuq otaqlarını isti yuvalara çevirən sevgidolu baxışlar, gülər üzlər də birdən yoxa çıxmışdı. Qalıqların altından çıxarılarkən onlar da bu daşlar kimi soyuq, parça-parçaydı.

Gün ağaranda hər şey gün kimi aydın oldu: Ata-anasız övlad, övladını, nəvələrini daşların altında qoyan baba, sevdiyi qadını, uşaqlarını gecəyə qurban verən ata, qucağı bir neçə saniyədə boş qalan ana...

### Ali məktəbə daxil olmaq istəyirdi

Bir kişini ata edib, bir qadına "ana" deyən 15 yaşlı Nigardan geriyə nəsə qaldımı, görəsən? Yaşadığı 15 ildə qazandığı sevgi dolu yarımçıq ömür. O gecədən sağ çıxsaydı, doğum gününü qeyd edəcəkdi. Milli Müstəqillik günündə doğulmuşdu, elə o gün də torpağa tapşırıldı. O torpağa ki, onun uğrunda qurban getdi. 15 yaşını qeyd edə bilmədən, həyatda ən çox sevdiyi anasıyla nənəsini götürüb köçdü bu dünyadan.

Söhbət Nigar Əsgərovadan gedir. Oxuduğu məktəbin - Gəncə şəhər K.D.Uşinski adına 29 nömrəli tam orta məktəbin Tərbiyə işləri üzrə direktor müavini Vüsalə Məmmədovanın sözlərinə görə, üzü də gözəldi, təbiəti də: "Azərbaycan qadınında axtardığımız bütün keyfiyyətlər vardı Nigarda. Ağırbaşlı, ağıllı, sakit bir qız idi. Bilik yarışlarında, olimpiadalarda iştirak edir, ictimai işlərə qoşulurdu. Ali məktəbə daxil olmaq, həkim olmaq istəyirdi".

Nigarın riyaziyyat müəllimi Zümrüd Süleymanova da onu böyük arzuları ilə xatırlayır: "Nümunəvi idi. Könülsüz bir işini görmədim. Gördüyü işə ürəyini qoyurdu. Öz üzərində işləyən, inkişaf edən bir yeniyetmə idi. Fikirləri, fikrini ifadə tərzi, dərslərinə olan sevgisi onu fərqləndirirdi. Elə hesab edirdim ki, o bütün arzularını reallaşdıra biləcək".

Bəsti Cəfərova 5 il Nigarın sinif rəhbəri olub: "Yadıma gəlmir ki, məni və sinif yoldaşlarını incitsin. Tərbiyəli davranar, tərbiyəli oturub durardı. Heç vaxt dərsə gecikməzdi. Hərdən deyirdim "Ay Nigar, bərkdən danışsana?". O da sakitcə üzümə baxıb gülümsəyərdi. Yay tətili ərəfəsində Nigara dedim ki, dibçəkləri evinə aparıb tətil müddətində onlara qulluq etsin. Yavaşca dedi ki, "birdən suyunu gec verərəm, quruyar". Nigar elə saf ürəkli bir şagird idi. Ürəyim doludur, belə bir şagird də ölərmi?"

### Terror qurbanı bacı-qardaş

Nigar Gəncə şəhər K.D.Uşinski adına 29 nömrəli tam orta məktəbin yeganə terror qurbanı da olmadı. Onun kimi məktəbli olan 2 terror qurbanı da var. Biri *Məryəm*, o biri də Orxan. Bu həyata eyni ailədə gələn, eyni qadına ana, bir kişiyə ata deyən, böyümək üçün can atan iki fidan. Ataları həyatlarından çıxalı çox olmamışdı. Bu dünyada bir anaları vardı - Xatirə. Onları bu son yolçuluğunda tək qoymadı o da. Üçü də bir ayrıldı bu dünyadakı sevdiklərindən.

Məktəbin direktor müavini Vüsalə Məmmədova deyir ki, ikisi də sakit təbiətli uşaqlar idi. Orxanın utancaq, Məryəmin qəmli olmasını, susqunluqlarını ataları ilə əlaqələndirdi.

Məryəmin sinif rəhbəri Elnarə Namazova üçün Məryəm qapalı bir qutu oldu. Açmaq üçün çox cəhd etdi, amma: "Məryəm çox qapalı uşaq idi. Onu gülümsətməyə çalışsam da, buna nail ola bilmirdim. Şəkillərinə baxıram, 1 və ya 2 şəkli var gülümsəyərkən. Qəmli baxışları indi gözümün önündən getmir. Danışanda da üzümə baxmazdı. Dəftərlərini necə açıb baxacam, bilmirəm".

Samirə İsmayılova Orxanın V sinifdən sinif rəhbəridir. Sakit, ağıllı uşaq kimi xarakterizə etdiyi Orxan Məryəmin böyük qardaşıdır. VI sinifdə oxuyacaqdı, olmadı: "Çox tərbiyəli, ağıllı uşaq idi. Çalışqan idi. Sadəcə sinif rəhbəri deyildim, həm də Azərbaycan dili və riyaziyyat fənni üzrə əlavə hazırlıq keçirdim ona. Adamı heç incitməzdi. Bir dəfə kitabı götürəndə bilmədən, istəmədən kitabın gözünə dəyməsinə səbəb oldum. "Bağışla, Orxan. Bilmədən oldu", - deyib sanki ağrısını azaltmağa çalışdım. Orxan özümü pis hiss etməyim deyə gözünün ağrımadığını deyib məni sakitləşdirməyə çalışdı. Bilirdim ki, kitab onun gözünü incitdi, ancaq o, ağrısını yox, məni düşündü. Bu günlərdə o hadisə tez-tez ağlıma gəlir. Musiqi dərsində mahnı oxumağa utanırdı, ancaq yaxşı rəsm çəkirdi. Həvəsliydi rəsmə qarşı. Tapşırıqları canla-başla yerinə yetirirdi. Anasına oxşamışdı hər halda, anası Xatirə xanım da çox sakit qadın idi. Uşağının oxuması üçün əlindən gələni etməyə çalışırdı".

Qeyd edək ki, Orxan və Məryəm Xəlilli iki gün "gizləndilər" dağıntıların altında. Üzə çıxmağa tələsmədi bacı-qardaş. Vətən bölünməsin, dedilər. Bu, Azərbaycanın səsinə kar qalan dünyaya etirazı idi hər halda balaca qəhrəmanların. Hadisədən 2 gün sonra tapılan, tapılana qədər soyuyub daşlaşan cəsədləri ilə haqsızlığın üstünə yeridilər. Bu da onlar. Yerin 7 qat dərinindən əzəmətlə, qürurula çıxıb millətinin çiyninə qalxan iki savaşçı. Öz sözünü ölümləriylə deyib yenidən torpağa qayıtdı ikisi də.

### Daşların arasından yaralı çıxan məktəblilər

Gəncə şəhər K.D.Uşinski adına 29 nömrəli tam orta məktəb bu fəlakətdə çox itki verdi. 3 terror qurbanı - 3 məktəbli qaldı dağıntıların altında. Ancaq erməni vəhşiliyinə meydan oxuyan şagirdləri də var: *Aminlə Artur.* Daşların arasından yaralı çıxanlardandır ikisi də. Amma bu yara başqa yaraya bənzəməz. Bu yaradan qısa müddətdə sağalmaq o qədər də asan deyil. Artur hələ də reanimasiyadadır. Vəziyyəti ağır olaraq qalır. Aminin vəziyyəti isə ağır olsa da, sabitdir.

Oxuduqları məktəbdə onları da itirmək istəmirlər. Direktor müavini Vüsalə Məmmədova deyir ki, məktəbin itkisi çox, dərdi yaman ağırdır. Ancaq onlar bunun öhdəsindən gəlməyə çalışacaqlar. Qəmli, sakit baxışlı Nigarı, Məryəmi, Orxanı xatirələrində yaşadacaq, Aminin, Arturun yaralarını sarıb-sarmalayacaqlar.

### O gecənin şahidləri DANIŞIR

K.D.Uşinski adına 29 nömrəli tam orta məktəb Gəncəyə raket hücumlarından zərər görən yeganə məktəb deyil. Ondan əvvəl 32 və 20 nömrəli tam orta məktəblər də Ermənistandan gələn bu fəlakətdən payını alıb.

Oktyabrın 11-də yaralanan *Murad Cavadov* 32 nömrəli tam orta məktəbin şagirdidir. Fəlakəti yuxudaykən qarşılayıb. Gurultu səsinə oyananda anasını başının üstündə görüb: "Anam mənə "sakit ol", - deyirdi. Məni sakitləşdirməyə çalışırdı. Özü də qorxurdu, ancaq mənə "qorxma" deyirdi. O biri otaqdan atam da gəldi. Yaralıydı. Ancaq yarasına heç fikir vermədi. Tələsirdi ki, bizi ordan sağ-salamat çıxartsın".

Gecənin gətirdiyi fəlakətdə onun ən böyük xoşbəxtliyi də məhz bu idi: anası yanındaydı. Bir uşağın anası yanındadırsa, onu erməni raketi qorxuda bilərmi? Murad o gecə gördüklərinin, yaşadıqlarının təsiri altındadır hələ.

32 nömrəli tam orta məktəbin daha bir şagirdi, hələ IV sinifdə oxuyan *Rauf* da səsə oyanıb: "Balaca bacım yanımdaydı. O da ikinci sinif şagirdidir. Çox qorxurdu. Nə edəcəyimizi bilmədən ətrafı görməyə çalışırdıq. Birdən anamın səsi gəldi. Bizi axtarırdı. Anamın səsini eşidəndə sevindim. O bizi evimizdən tez çıxartmağa çalışırdı. Evimizdə bütün əşyalarımız məhv olmuşdu, əynimizə geyinməyə paltar belə tapa bilmirdik".

32 nömrəli tam orta məktəbin III sinif şagirdi *Hüseyn Əliyevlə* Gəncədəki 20 nömrəli tam orta məktəbin XI sinif şagirdi *Sevil Əliyeva* da o gecənin şahidləridir. Onlar sadəcə evsiz-eşiksiz qalmadı, hər iki valideynini itirdi bu uşaqlar. Sevil divarların, iri daş parçalarının üstünə aşandan sonrasını belə xatırlayır: "Atamın səsini eşitdim. Bir neçə dəfə məni və anamı çağırdı. Sonra səs kəsildi. Mən onda anamın öldüyünü anladım. Amma düşündüm ki, atam sağdır. Atamın da öldüyünə, ümumiyyətlə, ölə biləcəyinə inana bilmirəm. Onu həmişə güclü görmüşəm".

### SOYQIRIMI

Uşaqlar, sadəcə ata-anasını itirmədi, atasının gücünə, ölməzliyinə, qüdrətinə inamını da itirdi o gecə. Uşaqlar, sadəcə evsiz qalmadı, həm də ailəsiz qaldı. Ailələrdən geriyə heç kim qalmadı nəslini davam etdirsin deyə. Beşiyində boğuldu körpə nəfəslər.

Bu da növbəti erməni təcavüzünün nəticəsi. Soyqırımına daha bir cəhd. Ancaq bu cəhdlər hər zaman olduğu kimi, yenə nəticəsiz qalacaq.

# Teledərslərin uğurlu alınmasında müəllim həlledici rol oynayır

COVID -19-un səbəb olduğu pandemiyanın Azərbaycana da gəlib çatması ilə siniflərdən televiziya ekranlarına köçürülən dərslərin günümüzdə əhəmiyyəti ikiqat artıb. Belə ki, ötən tədris ilində fəaliyyəti dayandırılan məktəblərin öhdəliyinin bir hissəsi teledərslərin üzərinə düşürdüsə, bir hissəsi də onlayn dərslər hesabına ödənilirdi. 2020-2021-ci dərs ili başlayar-başlamaz Azərbaycanda hərbi vəziyyətin elan olunması onlayn dərslərin də qüvvədən düşməsinə səbəb oldu. İnternetin zəifləməsi ilə teledərslər yeganə çıxış yoluna çevrildi.

## *Nəzakət Mehdiyeva:*

## "Müəllimlər şagirdləri fəallaşdırmaq üçün müxtəlif istiqamətləndirici fəaliyyətlər üzərində düşünürlər"



**Ruhiyyə DAŞSALAHLI**

Hazırda Təhsil Nazirliyinin təşkilatçılığı ilə "Mədəniyyət TV" və "ARB Günəş" kanallarında "Dərs vaxtı" proqramı çərçivəsində yayımı davam etdirilən teledərslər tam yeni formatda, yeni studiyalardan məktəb proqramını paytaxt məktəblisindən ən ucqar kənd məktəbinin şagirdinə qədər hər kəsə çatdırmağa çalışır. Bəs, çatdıra bilirmi?

Təhsil İnstitutunun Təhsil İşçilərinin Peşəkar İnkişafı Mərkəzinin direktoru Nəzakət Mehdiyeva "Azərbaycan müəllimi" qəzetinə müsahibəsində uğurla davam edən layihədən danışıb:

- Sentyabrın 1-dən etibarən teledərslər həftənin 5 günü saat 10:00-dan 17:00-dək "Mədəniyyət TV" kanalında, saat 14:00-dan isə "ARB Günəş" kanalında yayımlanır. Teledərslər bütün sinifləri əhatə edir, dərs mövzularına dair izah və təlimatlar təqdim olunur.

*- Müəllimlər ötən dərs ilində formalaşan mövcud bazadan seçilir, yoxsa yeni müəllimlər cəlb edilir?*

- Çəkilişlərdə ümumilikdə 95 müəllim iştirak edir. Yeni müəllimlərin də prosesə cəlb edilməsi davam edir.

*- Müəllimlərin seçim prosesində hər hansı dəyişiklik varmı?*

-Yoxdur, seçim əvvəlki qaydada davam edir. Əvvəlcə müəllimlərlə müsahibə keçirilir. Müəllimlərə tapşırıq verilir ki, tədris etdiyi fənn üzrə bir mövzunu 10-12 dəqiqə müddətində təqdim etsinlər. Təqdim olunan dərsdə müəllimin danışığı, izahı, ifadə tərzi, öyrədici tapşırıqlar tərtib etmək bacarıqları qiymətləndirilir. Az vaxt ərzində xeyli sayda müəllimi dinləmişik.

*- İbtidai siniflərin dərsləri ilə yuxarı siniflərin dərslərinin sayı fərqlənir, elə deyilmi?*

- Bəli, ibtidai siniflər üçün teledərslər hər gün 2 dərs olmaqla həftədə 3 dəfə, yuxarı siniflərdə isə həftənin 2 günü sinfin dərs yükünə uyğun sayda fənn tədris olunmaqla keçirilir. Məsələn, IX sinif şagirdi teledərsə həftənin 2 günü baxır, hər dəfə bir neçə fənn üzrə dərsləri dinləyir.

*- Teledərslər, sadəcə ümumtəhsil müəssisələrinin proqramını əhatə etmir, elə deyilmi?*

- Elədir. İndiyədək teledərslərdə məktəbəqədər, ümumi təhsil və peşə təhsil səviyyələrini əhatə edən 1000 dərsdən artıq çəkiliş olub. Dərslər Təhsil Nazirliyinin facebook səhifəsində də yerləşdirilirdi, lakin mövcud vəziyyət səbəbindən dərslərin yerləşdirilməsinə ara verilib.

*- Bu ildən teledərslər yeni studiyalarda çəkilir. Çəkiliş prosesində başqa hansı dəyişikliklər, yeniliklər olub?*

- Qeyd etməliyəm ki, teledərslərin çəkilişinin ikinci mərhələsi daha planlı oldu. Yeni studiyanın qurulması, müəllimlərin metodik hazırlığı üçün müəyyən qədər vaxtımız oldu. Müəllimlər şagirdləri fəallaşdırmaq üçün müxtəlif istiqamətləndirici fəaliyyətlər üzərində düşünürlər.

*- Hesab edirsiniz ki, bu, əhəmiyyətlidir?*

- Əlbəttə. Bütün başqa amillərə, yüksək hazırlıqlara baxmayaraq teledərslərin uğurlu alınmasında müəllim həlledici rol oynayır. Bilik və bacarıqları məktəbdə müəllimdən almağa öyrənmiş şagird mövcud vəziyyətlə əlaqədar həmin imkandan məhrum qalıb. Bu isə şagirdlərdən müstəqil öyrənmə bacarığının formalaşmasını tələb edir. Biz də çalışırıq teledərslərə elə müəllimləri cəlb edək ki, şagirdlərin müstəqil öyrənmə bacarıqlarını inkişaf etdirən tapşırıqlar hazırlaya bilsinlər və onları araşdırmağa meylləndirməyi bacarsınlar.

"AZƏRBAYCAN MÜƏLLİMİ"

**Qəzet 1934-cü ildən çıxır**

**Baş redaktor**
Sarvan İbrahimov 538-21-55

**Mühasibatlıq** 539-67-74
**Reklam və elanlar** 539-20-77 (tel./faks)

**Ünvan:** AZ-1100, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə 23 M, Mətbuat Evi, 5-ci mərtəbə

Qəzet "Azərbaycan müəllimi"nin kompüter mərkəzində yığılır və "Azərbaycan" nəşriyyatında çap olunur

Qəzet hər həftənin cümə günü çıxır

**Bank hesabımız**
Azərbaycan Beynəlxalq Bankı 5 saylı "Mətbuat şöbəsi"
Kodu: 805142 VÖEN: 9900001881
M/h: AZ 03 NABZ 01350100000000002944
S.W.I.F.T.: IBAZAZ 2X

"Azərbaycan müəllimi" qəzeti redaksiyası
Hesab № AZ80 IBAZ38060019443164986350
VÖEN: 1300397831

**Lisenziya** № 022327, **İndeks:** 0003, **Tiraj** 6771, **Sifariş** 2509

**Məsul növbətçi:** O.Mustafayev

# GÇH rəhbərləri təbliğat-təşviqat işlərinə cəlb olunub

Bakı Şəhəri üzrə Təhsil İdarəsinin tabeliyindəki ümumi təhsil müəssisələrində çalışan gənclərin çağırışaqədərki hazırlığı (GÇH) rəhbərləri könüllülük əsasında təbliğat-təşviqat işlərinə cəlb olunub.

Ermənistan silahlı qüvvələrinin cəbhəboyu zonada yerləşən Azərbaycan Ordusunun mövqelərinə və yaşayış məntəqələrinə qarşı hücuma başlamasından sonra Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin yerli idarələri tərəfindən 100-ə yaxın GÇH rəhbərinə bir sıra təlimati tapşırıqlar verilib.

Müvafiq tapşırıqlar çərçivəsində GÇH rəhbərləri qismən səfərbərlik prosesinin gedişinə peşəkar dəstək göstərir, ölkənin müdafiəsi ilə bağlı formalaşmış yekdil ictimai rəyin daha da möhkəmləndirilməsi məqsədilə vətəndaşlara müvafiq məlumatlar verir, lazımi söhbətlər aparırlar. GÇH rəhbərləri həmçinin, çağırışçılar və könüllülərlə iş üzrə komanda heyətində iştirak edirlər.

Bundan əlavə, GÇH rəhbərləri təbliğati və maarifləndirmə işi çərçivəsində çağırışçılara şanlı Azərbaycan əsgəri kimi müqəddəs adı daşımaq, Vətənə şərəflə xidmət etmək, nizam-intizamlı olmaq, verilən tapşırıqları layiqli şəkildə yerinə yetirmək baxımından müvafiq tövsiyələr verirlər.

Qeyd edək ki, hər bir Azərbaycan vətəndaşı ölkəmizin ərazi bütövlüyü üçün təcavüzkar düşməni məhv etməyə və haqq işimiz olan Vətən müharibəsini tam qalibiyyətlə başa çatdırmağa hazırdır. Böyük ruh yüksəkliyi və coşqu ilə yola salınan hər bir çağırışçının dilində "Biz zəfər çalacağıq!", "Qarabağ Azərbaycandır!" şüarları səslənir.

# Etibarsız sayılır

**Bakı 2 nömrəli Dəmir yolu peşə liseyi** tərəfindən 1981-ci ildə Həsənquliyev Elman Saleh oğluna verilmiş 814634 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Beynəlxalq Universiteti** tərəfindən 2002-ci ildə Həsənova Səriyyə Namət qızına verilmiş A-117843 nömrəli bakalavr diplomu itdiyi üçün etibarsız sayılır.

**Bərdə rayon** Mehdixanlı kənd tam orta məktəbi 2015-ci ildə bitirmiş Məmmədov Vasif Sabir oğluna verilmiş A-471913 nömrəli tam orta təhsil haqında attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 53 nömrəli tam orta məktəbi 2013-cü ildə bitirmiş Hüseynov Teymur Rəhim oğluna verilmiş A-185866 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Zaqatala şəhər** 2 nömrəli tam orta məktəbi 2001-ci ildə bitirmiş Abdullayev Aydın Məhərrəm oğluna verilmiş A-583101 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Gəncə Tibb Kolleci** tərəfindən 2017-ci ildə Mikayılova Gülarə Zabit qızına verilmiş AA-101779 nömrəli subbakalavr diplomu və əlavəsi itdiyi üçün etibarsız sayılır.

**Bakı Plan-İqtisad Texnikumu** tərəfindən 1976-cı ildə Rüstəmov Sadıq Şahsuvar oğluna verilmiş Ю-005686 nömrəli diplom itdiyi üçün etibarsız sayılır

**Xaçmaz şəhər** 1 nömrəli tam orta məktəbi 2012-ci ildə bitirmiş Xudaverdiyev Nicat Kamran oğluna verilmiş A-134839 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Samux rayon** Seyidlər kənd tam orta məktəbi 2014-cü ildə bitirmiş Səmədov Nicat Fəxrəddin oğluna verilmiş A-384004 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Ç.İldırım adına Azərbaycan Politexnik İnstitutu** (indiki AzTU) tərəfindən 1983-cü ildə Eyvazov Telman Mikayıl oğluna verilmiş ИВ-I-040609 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**Gəncə Dövlət Universiteti** tərəfindən 2007-ci ildə Əliyeva Nurtəkin Fizuli qızına verilmiş B-085576 nömrəli bakalavr diplomu itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 53 nömrəli tam orta məktəbi 2001-ci ildə bitirmiş Kazımov Dunay Mehman oğluna verilmiş A-500740 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**M.Ə.Sabir adına Bakı Pedaqoji Məktəbi** tərəfindən 1987-ci ildə Əzizova Ayna Mehti qızına verilmiş ИТ-015809 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**N.Tusi adına Azərbaycan Dövlət Pedaqoji Universiteti** tərəfindən 1994-cü ildə Əzizova Ayna Mehti qızına verilmiş AB-I-066719 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 231 nömrəli tam orta məktəbin IX sinfini 2001-ci ildə bitirmiş Mirzəyeva Asya Mehti qızına verilmiş N-377432 nömrəli şəhadətnamə itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 231 nömrəli tam orta məktəbin IX sinfini 2001-ci ildə bitirmiş Mirzəyeva Ülkər Tahir qızına verilmiş N-377433 nömrəli şəhadətnamə itdiyi üçün etibarsız sayılır.

**Lənkəran rayon** İstisu qəsəbə tam orta məktəbi 1998-ci ildə bitirmiş Fərzəliyeva Aytəkin Hüccət qızına verilmiş A-159014 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 247 nömrəli tam orta məktəbi 2012-ci ildə bitirmiş Nəbiyev Samir Sənan oğluna verilmiş 960168 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Kürdəmir şəhər** 6 nömrəli tam orta məktəbi 2019-cu ildə bitirmiş Şıxəlizadə Kamil Şamil oğluna verilmiş E-237608 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Sumqayıt şəhər** 6 nömrəli tam orta məktəbi 2004-cü ildə bitirmiş Məmmədov Fərhad Firudin oğluna verilmiş B-051476 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Sabirabad rayon** Yenikənd kənd tam orta məktəbi 1996-cı ildə bitirmiş Mehdiyeva Pərvanə Qüdrət qızına verilmiş A-033604 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Sabirabad şəhər** 4 nömrəli tam orta məktəbi 1983-cü ildə bitirmiş Nadirova Lalə Fəyyaz qızına verilmiş AK-135199 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Zaqatala rayon** Qiyabi məktəbin XI sinfini 1984-cü ildə bitirmiş Fətəliyev Əhməd Bayram oğluna verilmiş 963855 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Şəmkir rayon** Ə.Cavad adına şəhər tam orta məktəbini 2000-ci ildə bitirmiş Babayeva Könül Sabir qızına verilmiş A-443171 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Şəmkir rayon** Düyərli kənd 1 nömrəli tam orta məktəbi 2000-ci ildə bitirmiş İsayeva Günel Saleh qızına verilmiş A-443695 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 203 nömrəli tam orta məktəbi 2005-ci ildə bitirmiş Osmanov Emil Vidadi oğluna verilmiş B-203466 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Zərdab şəhər** 3 nömrəli tam orta məktəbi 1993-cü ildə bitirmiş Ağayev Namiq Rafiq oğluna verilmiş A-040160 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Lerik rayon** Vamazğon kənd tam orta məktəbin IX sinfini 1989-cu ildə bitirmiş Panəliyeva Gülər Vəliəhəd qızına verilmiş A-594817 nömrəli şəhadətnamə itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 84 nömrəli tam orta məktəbi 1998-ci ildə bitirmiş Həşimov Elşən Zakir oğluna verilmiş A-222485 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı Dövlət Universiteti** tərəfindən 2009-cu ildə Ayan Ali İbrahim oğluna verilmiş MNA-021120 nömrəli magistr diplomu və əlavəsi itdiyi üçün etibarsız sayılır.

# ALLAH RƏHMƏT ELƏSİN!

Bakı Musiqi Akademiyasının rektoru, professor Fərhad Bədəlbəyli və kollektivi Akademiyanın Kadrlar şöbəsinin müdiri

**SEVDA AXUNDOVANIN**

vəfatından kədərləndiklərini bildirir və ailəsinə dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Dövlət Pedaqoji Universitetinin nəzdində Azərbaycan Dövlət Pedaqoji Kollecinin rəhbərliyi və kollektivi Dilarə Səfiyevaya anası

**TÖHVƏ SƏFİYEVA və bacısı İRADƏ MAQSUDOVANIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Quba Rayon Təhsil Şöbəsinin kollektivi Quba şəhər Hacıbaba Əliyev adına 1 nömrəli tam orta məktəbin direktoru

**YAVƏR MUSAYEVANIN**

vəfatından kədərləndiyini bildirir və ailəsinə dərin hüznlə başsağlığı verir.

---

Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin nəzdində Humanitar Kollecinin direktoru Vaqif Əmiraslanov və pedaqoji kollektivi kollecin müəllimi Natella Heydərovaya oğlu

**RAFİQ HEYDƏROVUN**

vaxtsız vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Cəbhədə döyüşən müəllimlər

# Sinifdən səngərə

## Təhsil işçiləri ön cəbhədə də nümunə göstərirlər

Artıq bir aya yaxın müddətdir ki, ölkəmizdə Vətən müharibəsi gedir. Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Rəşadətli Azərbaycan Ordusu işğal altında olan tarixi Azərbaycan torpaqlarının bir hissəsini azğın düşməndən azad edib. İnşallah növbəti günlərdə də işğal altında olan digər torpaqlarımızın azad olunacağına xalqımız inanır və əmindir.

Niyazi RƏHİMOV

Vətən müharibəsi başlayan gündən kiçiyindən-böyüyə, cavandan-yaşlıya qədər, peşə sahibindən, vəzifəsindən asılı olmayaraq, hər bir kəs döyüşə getməyə hazır olduğunu deyir. Bütün bunlar xalq, dövlət, ordu birliyinin ölkəmizdə nə qədər güclü olduğunu, xalqımızın daim ölkə Prezidentinin ətrafında sıx birləşdiyini bir daha sübut edir.

Vətənin bu günlərində bütün peşə sahibləri kimi müəllimlərimiz, təhsil işçilərimiz də torpaqlarımızın azadlığı uğrunda döyüşlərdə can-la-başla iştirak edirlər. Bu gün öz keçmiş şagirdləri ilə səngərdə çiyin-çiyinə vuruşan müəllimlər gələcək nəsilə, bu günün şagirdlərinə vətənpərvərlik ruhunda tərbiyyəni, torpaq uğrunda canından keçməyin örnəyini sinifdə deyil, döyüş meydanında nümayiş etdirirlər.

Respublikamızın hər bölgəsində yerləşən təhsil müəssisələrinin müəllimləri, məktəb rəhbərləri, təhsilin idarəetməsində yüksək vəzifədə çalışanlar səngərdə mənfur düşmənlə üz-üzə dayanıb, torpaqlarımızın azadlığı uğrunda döyüşür. Təkcə Bakı məktəblərindən 127 müəllim bu gün cəbhənin müxtəlif istiqamətlərində aparılan hərbi əməliyyatlarda iştirak edir.

Müəllimlərin cəbhənin ön hissəsində xidmət aparmaqlarını yüksək qiymətləndirən təhsil işçiləri, ekspertləri öz fikirlərini bizimlə bölüşüb.

### “Azərbaycan müəllimi hər zaman ölkəmizin ictimai-siyasi həyatında müstəsna rol oynayıb”

Təhsil Nazirliyinin məktəbəqədər və ümumitəhsil şöbəsinin əməkdaşı Əhliyyət Adıgözəlov bizimlə söhbətində bildirib ki, Azərbaycan müəllimi hər zaman ölkəmizin ictimai-siyasi həyatında müstəsna rol oynayıb, müəllimlərimiz dövlətimizə, millətimizə sədaqətlə xidmət edib: “Bu gün ölkəmizdə gedən Vətən müharibəsində müəllimlərimiz cəbhədə döyüşür. Qeyd etmək istəyirəm ki, müəllimlərlə bərabər Təhsil Nazirliyinin nümayəndəsi, Təhsil şöbə müdiri də bu günlərdə cəbhədə vuruşanlar arasındadır. Düşünürəm ki, əgər bir rayonda təhsil şöbəsinin müdiri döyüşlərə qatılırsa deməli bütün rayon təhsil işçilərində böyük ruh yüksəkliyi yaranır. Bu kimi hallar həm şagirdlərdə, həm də müəllimlərdə vətənə sevgi hissini daha da gücləndirir”.

### “İnşallah tezliklə torpaqlarımız işğaldan azad ediləcək və müəllimlərimiz səngərdən sinfə qayıdacaq”

Təhsil Nazirliyi yanında İctimai Şuranın sədri, professor Şahlar Əsgərov da müəllimlərin döyüşlərdəki iştirakı ilə bağlı düşüncələrini bizimlə bölüşüb. O, müəllimlərin döyüşlərdə iştirak etməsini təkcə müharibə dövründə deyil, gələcək illərdə də cəmiyyətə, təhsilimizə, şagirdlərin milli-vətənpərvərlik ruhunda tərbiyyəsinə çox müsbət təsir edəcəyini vurğulayıb: “Təhsil dəyərdir. Vətən isə müqəddəs dəyərdir. Düşünürəm ki, vətənizimin bütövlüyü, torpaqlarımızın azadlığı uğrunda bütün dəyərlər birləşib. Təhsil işçiləri, müəllimlərin Vətən müharibəsində iştirakı digər peşə sahiblərindən fərqli olaraq gələcək nəsillər üçün həm də bir nümunədir. İnşallah tezliklə torpaqlarımız işğaldan azad ediləcək və müəllimlərimiz səngərdən sinfə qayıdacaq. Onda müəllimi haqqında, onun döyüş qəhrəmanlığı barədə məlumatı olan şagird gələcəkdə onu təbii ki, özünün idealı hesab edəcək”.

### “Bu gün hamı kimi müəllimlərimiz də cəbhədə fəallıq göstərir”

Təhsil Nazirliyi yanında İctimai Şuranın sədr müavini Nadir İsrafilov da müəllimlərimizin qəhrəmanlıq səlnaməsi yazdığını, döyüşlərdə fəal iştirak etdiyini bildirib. O, birinci Qarabağ müharibəsi zamanı da müəllimlərimizin ön xətdə döyüşdüyünü, şücaət göstərdiyini sözlərinə əlavə edib: “Müəllim cəmiyyətin ən aparıcı simalarından biridir. Bu gün hamı kimi müəllimlərimiz də cəbhədə fəallıq göstərir. Bu hər birimizin vətəndaşlıq borcudur. Təbii ki, əgər mövzu Vətəndirsə müəllimlərimiz burada da öndə olmalıdır. Şübhəsiz ki, təhsil işçiləri hər yerdə nümunə olmalıdır. Bilirik ki, bu gün Azərbaycan məktəblərinin qarşısında duran ən ümdə vəzifə vətəndaş yetişdirməkdir. Düşünürəm ki, bu baxımdan müəllimlərimiz şəxsi nümunə göstərir. Bu nümunə şagirdlərimizin milli ruhda tərbiyyə olunmasında böyük önəm daşıyır”.




# Ordumuzun uğurlu əməliyyatları hər birimizi sevindirir!

## Dövlət Proqramı təqaüdçüləri Azərbaycan həqiqətlərini dünya ictimaiyyətinə çatdırırlar

Sentyabrın 27-də Ermənistan ordusunun təxribatlarına qarşı Prezident, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə başlayan genişmiqyaslı Vətən müharibəsi rəşadətli Ordumuzun qələbə xəbərləri ilə hər bir vətəndaşımızı sevindirməkdədir. 30 il erməni işğalı altında olan əzəli torpaqlarımızın azadlığa qovuşması xarici ölkələrdə təhsil həyatı yaşayan tələbələrimizi də sevindirir. “2007-2015-ci illərdə Azərbaycan gənclərinin xarici ölkələrdə təhsili üzrə Dövlət Proqramı” təqaüdçüləri də yaşadıqları ölkələrdə fəallıq göstərərək ölkəmizin haqq işini, Azərbaycanın qələbə əzmini, dinc sakinlərimizə, mülki obyektlərə qarşı erməni vəhşiliyini keçirdikləri yürüş mitinqlərdə dünya ictimaiyyətinin diqqətinə çatdırır.



Mehriban Eldarlı



Şamil Mustafayev

Oruc MUSTAFAYEV

### “Bir amal üzrə birləşən bütün vətəndaşlarımızla fəxr edirəm”

*Mehriban Eldarlı,*
*Almaniyanın Hochschule Triesdorf Tətbiqi Elmlər Universitetinin məzunu,*
*Dövlət Proqramı təqaüdçüsü*

- Azərbaycanın haqq işinin Avropada geniş təbliğ olunması məqsədilə oktyabrın 3-də Almaniyanın Düsseldorf şəhərində keçirilən “Erməni terroruna və işğalçılığına son” adlı yürüş-mitinqdə iştirak etmişəm. Yürüş zaman Almaniyada yaşayan millətlərə müxtəlif dillərdə məlumatlar verilmiş, çıxışlar olub. Oktyabrın 17-də isə Berlin şəhərində 6000 minə yaxın azərbaycanlının iştirakı ilə “Erməni işğalına son” adlı yürüş-mitinqi təşkil olundu. Yürüş zamanı müxtəlif dillərdə çıxışlar oldu, erməni terrorçularının Azərbaycan Respublikasının müxtəlif şəhərlərində, o cümlədən Gəncə şəhərində dinc əhaliyə qarşı törətdikləri əməllər qəti şəkildə pislənildi.

Erməni təxribatlarına cavab olaraq Azərbaycan Ordusu işğal altında olan torpaqlarımızın azad olunması üçün uğurlu əməliyyat həyata keçirir. Rəşadətli ordumuzun uğurlu əməliyyatları hər birimizi sevindirir. Həm hərbi sahədə yüksək peşəkarlıq nümayiş etdirilir, həm də sosial şəbəkələr vasitəsilə təşkil olunan məlumatlandırma, maarifləndirmə, eyni zamanda erməni iftiralarının ifşa olunması istiqamətində uğurlu işlər həyata keçirilir. Mən bir gənc olaraq aparılan çoxşaxəli mübarizə əməliyyatlarında bir amal üzrə birləşən bütün vətəndaşlarla, o cümlədən dünyanın müxtəlif ölkələrində yaşayan hər bir azərbaycanlı ilə fəxr edirəm. Mən fəxr edirəm ki, mən azərbaycanlıyam!

### Niderlandda Qarabağ həqiqətlərini çatdırmaq üçün sosial şəbəkə hesabı açdıq

*Şamil Mustafayev,*
*Niderlandın Eyndhoven Universitetinin məzunu,*
*Dövlət Proqramı təqaüdçüsü*

- Hadisələrə münasibətim təbiidir. Azərbaycan uzun illər Ermənistanla danışıq aparmağa, problemi sülh yolu ilə həll etməyə çalışdı. Təəssüflər olsun ki, Ermənistanın baş naziri Paşinyan xalqımızı “Qarabağ Ermənistandır” deməklə təhqir etdi. Təbii ki, biz də bu təhqirə göz yuma bilməzdik. İllər boyu davam edən hücumların nəticəsi olaraq da nəhayət, əks-hücumla öz torpaqlarımızı işğaldan azad etmək qərarına gəldik və bu qərarla şəxsən mən də hər bir azərbaycanlı kimi Ali Baş Komandanı dəstəkləyirəm.

Görülən işlərə gəldikdə isə, bilirsiniz, Avropada həm media, həm də parlament ikili standart nümayiş etdirir. Müharibənin sanki islam-xristian dinləri arasında getdiyini qabardırlar, həm Türkiyəyə qarşı nifrətləri olduğu üçün bizi dəstəkləmirlər, həm də erməni lobbilərinin fəaliyyəti nəticəsində bizə qarşı məqalələr və bəyanatlar verməyə çalışırlar. Biz də öz növbəmizdə maksimum çalışırıq media ilə əlaqə saxlayaq, etirazlarımızı bildirək.

Bir neçə gün öncə Niderlandın ən böyük media şirkəti olan NOS-a müsahibə verib, Azərbaycanın mövqeyini oxuculara çatdırmışıq. Həmçinin Azərbaycan diasporasının köməyi ilə Azərbaycanın Müstəqillik Günündə Haaqada etiraz aksiyası təşkil etmişik. Etirazımız isə günahsız yerə insanlarımızı, uşaqlarımızı öldürən və torpaqlarımızı işğal siyasətini davam etdirən Ermənistan hökumətinə idi. Bundan əlavə, Gəncə hadisələrində həlak olmuş insanların adını əbədiləşdirmək və zərərçəkmiş şəxslərə yardım toplamaq məqsədilə dostum Orxanla birlikdə *www.prayforganja.com* saytını qurduq. Sonda isə Niderlandda yaşayan yerli əhaliyə Qarabağ həqiqətlərini çatdırmaq üçün yerli dildə bir sosial şəbəkə hesabı açdıq və oradan məlumatlar paylaşırıq. Təbii ki, burada yaşayan ermənilər bundan çox qıcıqlansalar da, buna qarşı heç nə edə bilmirlər, çünki haqq bizim tərəfimizdədir. Ümid edirəm ki, tezliklə bu müharibə bizim qələbəmizlə, ermənilərin işğal etdiyi torpaqlarımızı tərk etməsi ilə yekunlaşar. Allah ordumuzu qorusun!